**Şakir YAQUBOV**

# *MƏN ŞAHİDƏM Kİ...*

## Qara yanvar: əvvəl və sonra

**Bakı - 1992**

**Redaktor: Balaş ABBASZADƏ.**

Azərbaycan tələbə gənclərinin «Tanıtım» elm-istehsalat xeyriyyə assosiasiyasının sifarişi ilə.

Vəsait bütövlüklə xeyriyyə fonduna keçirilir. hesabın nömrəsi: 700812, Azərbaycan Dövlət Bankının Oktyabr rayon şöbəsi nəzdində AZMAN-BANK 161804, FAD 501822, «TANITIM» xeyriyyə assosiasiyası.

**İnqilabı dahilər hazırlayır, fanatiklər həyata keçirir,**
**nəticələrindən bəhrələnən isə fırıldaqçılar olur.**

**O. fon BİSMARK.**

**Zəruri ən söz**

**20 Yanvara aid nə gərmək mümkün olubsa, görmüşəm, nə eşitmək mümkün olubsa, eşitmişəm və buna gərə də müxtəlif ekran ustalarının, həvəskarların çəkdikləri sənədli-xronikal video filmlərə baxmağı, həqiqi və «peyda olmuş» şahidləri, mitinq tribunlarını dinləməyi artıq saymışam. Yanvarın 20-dən əvvəlki təqribən 50 gündə — respublikada hakimiyyətin iflic vəziyyətinə düşdüyü şəraitdə, əslində isə açıq-aşkar hakimiyyətsizlik, yiyəsizlik, anarxiya şəraitində camaatı yerindən edək, onları küçə-küçə, meydan-meydan gəzdirib ən müxtəlif qeyri-insani hərəkətlərə qoşan və bu «vətənpərvərliyinə» gərə həmin vaxtlar döşünə döyüb özünü əyən, yanvarın 11-də Azadlıq meydanındakı mitinqin tribunasından xalqı «hökumətin pul yerlərini ələ keçirib silah almağa» və «silahlı üsyan yolu ilə hökuməti devirməyə» çağıran, «Ermənistanda azərbaycanlı yoxdursa, Bakıda da bircə erməni qalmamalıdır» — «şüarı» ilə «mübarizə vintcikləri»ni yanvarın 13—14-də talanlara təhrik edən, yanvarın 19-da keçmiş MK binası qarşısındakı mitinqdə camaatı «axıradək dayanmağa» çağıran, «haydı, igidlərim!» — deyə cavan-cavan oğlanları barrikadalar qurmağa və «postlardakı ərənləri əvəz etməyə» göndərən, sonralar isə «azadlıq verilmir, alınır» kimi müqəddəs həqiqəti əz əməl və niyyətlərinə, yüzlərlə adamın düçar olduğu böyük müsibətə haqq qazandırmaq üçün əldə bayraq edənlərin məhkəmə çıxışlarını dinləməyə də hövsələm çatmayıb. O çıxışların səmimi olmadığını bildiyim üçün...**

**...Bu cümlələrim Qanlı şənbə gecəsinə, onun təşkilatçılarının və qurbanlarının faciəsinə qiymət vermək təsiri bağışlasa da, bu fikirdən çox-çox uzağam. Mən inanıram ki, bu gün də olmasa, sabah, sabah da olmasa, altdakı gün kimin kim olduğu aşkara çıxacaq. Atalar deyib ki, haqq nazilər, üzülməz; nahaq qan yerdə qalmaz. Bir də deyiblər ki, cidanı çuvalda gizlətmək olmaz. Heç olmazsa, ona gərə ki, Azərbaycan Respublikası Ali Sovetinin Qara yanvar günlərində yaradılmış istintaq komissiyası işini başa çatdırıb son sözünü deməmişdir.**

**Bununla belə, 20 yanvardan bəri Bakı qırğını barədə çox yazılıb, çox deyilib. Bu mövzu az qala nüfuz məsələsinə çevrilib, siyasi qazanc mənbəyinə dönüb. Çox istərdim ki, təqdim etdiyim qeydlərə bu gəzlə baxılmasın. Sadəcə, həmin məşum günlərin şahidi kimi, mənə məlum olan faktları oxucuların geniş dairəsinə çatdırmaqdır istəyim. Məhşər məqamında kiməsə, nəyəsə bəlkə gərək oldu...**

**21 oktyabr 1991-ci il.** [3-4]

**Yağı yağ, ayranı ayran eləməyə qadir olan, lakin dərhal bunu etməyən ZAMAN nəhrindən bir damcı da buxarlanıb ömürlərə hopdu...**
**«Kommunist» (indiki «Xalq qəzeti») qəzetinin 1990-cı il 1 yanvar nömrəsində dərc etdirdiyim qeydlər bu cümlə ilə başlanırdı və mən üstündən bir il sonra, tarixə dönmüş 1990-cı il barədə yazıma da nöqtəsinə, vergülünə əl vurmadan həmin cümlə ilə başlamışdım; güman edirəm ki, o qədər də qəbahətli iş görməmişdim: illərin dönümü bəşər övladının ömründəki iki məqam — onun dünyaya gəlməsi və ölməsi kimi əbədi, dəyişməz bir təbiət hadisəsidir və burada hər dəfə yeni təşbeh,**

**bənzətmə işlətmək mahiyyəti dəyişdirmir. Ancaq 90-cı ilə qədəm qoyarkən qeydlərimin «Nəcib əməllər, xoş məramlar, ülvi arzular naminə sürdüyümüz ömürdə qadağalar, yasaq və icazə ilə bir daha qarşılaşmayacağımız ümidiylə də bu yazıya nöqtə qoyuram...» kəlməsi ilə bitməsinə görə çəmi 15 gün sonra məni bürümüş xəcalət hissinin mənə ömürlük yük olacağını deməyə bilmirəm. Bunu siyasi bəsirətsizlikdən doğan xəcalət hissi də adlandırmaq olar — mən cəmi üç həftə sonra xalqımızın düçar olacağı, Yarası sızım-sızım sızlayacaq, qan verəcək, misilsiz, tayı-bərabəri olmayan müsibətinə fərman imzalanacağını görə bilməmişdim...**

## I. Əvvəl...

**Cəmi on beş gün keçdi 90-cı ilin başlanmasından. 16-cı gün qəzetlərdə Dağlıq Qarabağ Muxtar Vilayətində, Azərbaycan SSR-in və Ermənistan SSR-in bəzi başqa rayonlarında fövqəladə vəziyyət elan edilməsi barədə SSRİ Ali Soveti Rəyasət heyətinin fərmanı dərc olundu.**

Mən o vaxt «Kommunist»də işləyirdim. Fərmanı teletayp xətti ilə, saat 22-dən sonra aldıq və yığdırıb səhifəyə qoydurduq. həmin an onun məzmunu şəxsən mənə heç nə demirdi. Hətta 7-ci bənddəki «Azərbaycan SSR Ali Sovetinin Rəyasət heyətinə təklif edilsin ki, Bakı və Gəncə şəhərlərində və digər yaşayış məntəqələrində qadağan saatının tətbiq edilməsi də daxil olmaqla... hər cür lazımi tədbirlər görsün» — kəlmələri də.[4-5]

O biri gün «İzvestiya»nın birinci səhifəsində ənənəvi aktual şərh verilmişdi. Gərək ki, A. Plutnik yazırdı: «Fövqəladə vəziyyət — SSRİ Ali Soveti Rəyasət heyətinin fərmanı ilə bir respublikada və digər respublikanın bir rayonunda fövqəladə vəziyyət elan edilmişdir...». (Qəribə idi: axı fərmanın 1-ci maddəsində yazılmışdı ki, Dağlıq Qarabağ Muxtar Vilayətində, Azərbaycan SSR-in ona bitişik rayonlarında, Ermənistan SSR-in Gorus rayonunda, həmçinin SSRİ-nin dövlət sərhədi boyunca Azərbaycan SSR ərazisində fövqəladə vəziyyət elan edilsin. Bəs niyə «bir respublika» və «digər respublikanın bir rayonu»?! Görünür, üç-dörd gündən sonra əyan olacaq reallığı fərmanın hərfi məzmunundan tuta bilməmişdim).

Mən yalnız o şərhi oxuyub başa çatandan sonra dərk etdim ki, yanvarın 1-də dərc etdirdiyim qeydlərin son cümləsi — ümidli arzum nə qədər də əl çatmaz, ün yetməz imiş...

«Səbr kasası daşmışdır. Son iki il yarımda, əslinə qalsa, ondan da çox-çox əvvəl damla-damla yığılan etiraz səsləri artıq qəzəb selinə çevrilmişdir. Bakının baş meydanını, eləcə də Azərbaycanın bütün guşələrini bürümüş mitinqlərdə eşidilən haqq səsi, xalqın harayı əzəmətli binaların kabinetlərinə nüfuz edə bilmir. Məhz buna görə də ümman seli məcrasından çıxaraq təzə səmt götürmüşdür: adamları daha nə qədər təmkinə çağırmaq olar?».

Jurnalist Zülfüqar Rüfətoğlunun «Hadisələrin seytnotunda» reportajı bu cümlələrlə başlanırdı. Həmin reportaj ki, 90-cı il yanvarın 18-də yazılmışdır və elə o axşam «Kommunist»də dərc olunmalı idi, lakin dərc olunmamışdır (kitabxanalarda yəqin etmək olar: yanvarın 19-dan 25-dək Bakıda heç bir qəzet, o cümlədən «Kommunist» də çıxmamışdır və tək Zülfüqar deyil, adını çəkəcəyim digər qələm yoldaşlarım da həmin günlər nəsə yazıb çap etdirə bilmədiklərini bəlkə də unutmuşlar. İndi ən məharətli prokurorun tərtib etdiyi ittihamnamədən də tutarlı, məntiqi səslənən həmin yazılar məndədir, vəzifə borcuna görə — o zaman «Kommunist»də məsul katib idim — məndə cəmləşirdi, lakin «hadisələrin seytnotu»nda hamı onları unutdu, elə müəlliflərinin də nəzərində it-bata düşdü, mənsə sövq-təbii ilə qoruyub saxladım...).[5-6]

Zülfüqar yazırdı:

**«Bu günlərdə Azərbaycan KP MK-nın binası qarşısında aramsız mitinq keçirilir. Şəhərin sənaye müəssisələrində iş dayandırılmış, ali məktəblərin auditoriyaları boşalmışdır. Artıq real siyasi qüvvə olan Azərbaycan Xalq Cəbhəsinin təşkil etdiyi mitinqlərdə çıxışlar bir-birini əvəz edir...».**

**YERİ GƏLMİŞKƏN:**

**«Mitinqi Azadlıq meydanından MK-nın binası qarşısına hansı qüvvələr keçirməyə nail olmuşdu!**

— Mənə elə gəlir ki, həmin mitinqin AXC-yə dəxli yox idi. Mən orda olurdum və oradakı adamların əksəriyyəti mənə təzə görünürdü. Adamların tərkibinə görə, fitnəkar çıxışlara görə həmin mitinq Azadlıq meydanındakı mitinqlərdən fərqlənirdi. Sözsüz ki, həmin mitinqlərin təşkilində respublikanın rəhbər dairələrində hakimiyyət uğrunda mübarizə aparan qrupların fəaliyyəti var idi».

**(Azərbaycan Xalq Cəbhəsinin I qurultayına AXC idarə heyətinin hesabatı ilə əlaqədar qurultay nümayəndələrinin suallarına İsa QƏMBƏROVUN cavablarından — «Azadlıq» qəzeti, 26 iyul 1991-ci il).**

Yenə Zülfüqarı dinləyək:

«Mitinqə toplaşanların, çıxışlara həmrəy olanların fikri birdir: SSRİ Ali Soveti Rəyasət heyətinin Dağlıq Qarabağ Muxtar Vilayətində və digər rayonlarda fövqəladə vəziyyət elan edilməsi barədə fərmanı Azərbaycan SSR-in suverenliyi haqqında konstitusiya qanununa ziddir, xalqın ədalətli tələblərinin tapdalanmasına yönəldilmişdir. Şəhərə ordu girməməlidir! Bundan başqa, respublikanın ərazisində fövqəladə vəziyyətin tətbiqinə razılıq vermiş Azərbaycan SSR Ali Sovetinin Rəyasət heyəti yeni seçkilərədək öz işini dayandırmalıdır. Respublikamızın suverenliyinə Ermənistanın təcavüzünə siyasi qiymət verilməli, cinayətlərin qarşısı alınmalıdır. Nə üçün ölkənin ali orqanları müşahidəçi rolunu oynayır, qərəzli, birtərəfli tədbirlər görür?...».

**YERİ GƏLMİŞKƏN:**

«1. DQMV-də, lazım gəldikdə isə DQMV-yə bitişik rayonlarda və SSRİ-nin dövlət sərhədi [6-7] boyunca fövqəladə vəziyyət tətbiq edilsin.

Həmin məsələ ilə əlaqədar SSRİ Ali Sovetinin Rəyasət heyətinə müraciət olunsun».

**(«Azərbaycan SSR-in DQMV-də vəziyyəti normal hala salmaq sahəsində təxirəsalınmaz tədbirlər haqqında» Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1990-cı il 15 yanvar tarixli qərarından).**

(Mən belə bir qərarın mövcudluğundan bu qeydləri çapa hazırladığım vaxt — 1991-ci ilin oktyabrında xəbər tutmuşam. Dərhal da diqqətimi onun tarixi çəkib: 15 yanvar 1990-cı il. Başqa sözlə, SSRİ Ali Soveti Rəyasət heyətinin fərmanı verilən gün. Bu, həddən artıq, adət etmədiyimiz operativlik nümunəsidirmi? Yoxsa Mərkəzin fərmanına bəraət qazandırmaq, onun üçün hüquqi zəmin olduğunu göstərmək cəhdi? Deyə bilmərəm... Bildiyim odur ki, Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin həmin qərarı o vaxtkı dövri mətbuatda dərc olunmayıb — təxminən bir ay sonra çapdan çıxmış «Qara yanvar. Bakı — 1990» kitabında verilib).

Dərc olunmamış reportajdan:

«Natiqlərin çıxışları ara verən kimi camaat nədən danışır? Orta yaşlı bir kişi həyəcanla dillənir:

— Bu yaxınlarda SSRİ Ali Sovetinin komissiyası Tbilisi hadisələri haqqında geniş məlumat verdi. Amma bu gün inadla Bakı yaxınlığına yeridilmiş çoxminli qoşun hissələrinin gəlişindən bəlli

olur ki, Tbilisi faciəsi tələsik, düşünülməmiş, amiranə addım atanlara hələ də dərs olmayıb. Necə olur ki, daxili işlər nazirliyinin az qala bütün cəbbəxanasının oğurlanmış olduğu Yerevana «Gözün üstə qaşın var», — deyilmir, Bakıda isə bilərəkdən belə əsəbi vəziyyət yaradılır? Axı bu vəziyyətdə nə fitnə desən, ortaya çıxa bilər. İnadla şəhərimizə gələn, magistrallarda durmuş zirehliləri Azərbaycan paytaxtına göndərənlər bunu düşünmürlərmi?

Universitet tələbəsindən isə eşidirik:

—Necə olur ki, gürcülər haqqında Mərkəz «Komendant saatı o millətin qüruruna toxuna bilər», — deyir, bizi isə qürursuz sayır? Məgər daxili işlər nazirliyimiz, şəhərimizin oğul və qızları vəziyyətə özləri nəzarət edə bilməzlərmi? [7-8]

Ağbirçək qadın söhbətə qoşulur:

— Əcəb işdir. Bakıda bu boyda mitinqlər keçir, respublikamızın böyükləri isə nəinki xalqın qarşısına, heç televizora çıxmırlar. Ona görə də bu vəzifələrə xalqın dərdinə qalan, çətin vəziyyətdə başını itirməyən adamlar keçməlidir...

Bakının bugünkü siyasi vəziyyəti, şahmatçıların təbirincə desək, seytnotu xatırladır: mübarizə meydanında geri çəkilən, fəaliyyətsiz dayanan «piyada»ları yalnız və yalnız siyasi nüfuza malik, xalqın dərdinə yanan qətiyyətli adamlar əvəz etməlidir. Xalq da bunu tələb edir. Vaxt isə gedir...».

**YERİ GƏLMİŞKƏN:**

**«Siz çıxışınızda bir ifadə işlətdiniz: «əhalinin radikallaşması». Siz bu radikallaşmanın səbəbini xalqda görürsünüz, ya idarə heyətində və yaxud bir çox demokratın seyrçi mövqe tutmasında!**

— Men yenə də belə hesab edirəm ki, bunlar bir-biri ilə bağlı hadisələrdir. Söhbət yalnız idarə heyətinin üzvlərindən getmir. Bütövlükdə xalqda radikallaşma var idi. Bunun da əsas səbəbi həmin günlərdə respublikada vəziyyətin həddən artıq kəskinləşməsi idi. Yadınıza salın: sərhəd rayonlarında və Dağlıq Qarabağda ordunun iştirakı ilə kəndlərə hücum edilir; Qorbaçov yanvarın 15-də fövqəladə vəziyyət barədə fərman verir, ancaq qoşun Bakıya gəlir. Belə bir şəraitdə xalqın radikallaşmayaçağını düşünmək çətin olardı. Eyni zamanda, mən İdarə heyətinin də əhval-ruhiyyəsini qeyd etməməkdən uzağam. Bir həqiqəti unutmayaq — Cəbhənin rəhbərliyində də müxtəlif əhval-ruhiyyəli adamlar ola bilər. Əhalinin əksəriyyəti, müəyyən təbəqələr həmin əhval-ruhiyyənin dalınca getməsə, bir adamın əhvalı heç neyi həll etməz».

**(Azərbaycan Xalq Cəbhəsi I qurultayı nümayəndələrinin suallarına İsa QƏMBƏROVUN cavablarından — «Azadlıq» qəzeti, 26 iyul 1991-ci il).**

Bəli, «əhali radikallaşmışdı» və «radikallaşmaq»dan savayı özgə əlacı da qalmamışdı.

Yanvarın 15-də Gəncədən Əhməd İsayev xəbər verirdi:[8-9]

«Gəncəbasar zonasında vəziyyət kərkin olaraq qalır. Şənbə və bazar günlərində narahatlıq daha da artıb. Şaumyan (kənd) rayonundakı Şəfəq kəndinə erməni ekstremistlərin silahlı hücumu olub. Todan kəndi mühasirə vəziyyətindədir. Kolxozun sədri Əliqara Əlihüseynov, habelə Ruzgar Qasımov, Bəxtiyar Əliyev və Abbasqulu Məmmədov işgəncə ilə öldürülüblər.

Hacıkənddə, Azad, Kamo və Çaykənd istiqamətində də ölən və yaralananlar vardır. Milis işçisi Eldəniz Əliyev və iki nəfər cavan oğlan girov götürülüb. Hərbi hissələrdən gələn əsgər və zabitlərin erməni ekstremistlərlə açıq-aşkar əlbirliyi camaatda hiddət və qəzəb doğurur. Hər gün Çaykəndə Stepanakert və Yerevan səmtindən vertolyotlar döyüş sursatı və hərbi formalı saqqallılar gətirir. Azərbaycan kəndlərini xalq müdafiə qrupları qoruyur. Hadisələr getdikcə dözülməz hal alır».

Əhmədin yanvarın 17-də telefonla diqtə etdiyi geniş reportajda isə deyilirdi:

«Bu qeydləri Şaumyan rayonundan diqtə edirəm. Daha doğrusu, azərbaycanlılar yaşayan Şəfəq kəndindən, neçə vaxtdır ki, rayon mərkəzinə girmək müşkül məsələdir. Rayonun hərbi komissarı Teymur Həsənov da burada «qapı dalında» qalıb. Xidməti ezamiyyətdə imiş. Qayıdanda görüb ki, aləm bir-birinə dəyib, yol bağlanıb. Demədiyi, müraciət etmədiyi yer qalmayıb. Ev-

eşiyinə, iş başına buraxmırlar ki, buraxmırlar. İndi bizimlə birgə «Fərhad» zonasının müdafiə-keçid məntəqəsində oturub komendantı gözləyir. Gəncədən, Xanlar və Qasım İsmayılov rayonlarından xeyli adam gəlib. Yenə bizimkilər sağ olsun! Bir əlində həmişə sudur, yanğını söndürməyə çalışır. SSRİ Ali Soveti Rəyasət heyətinin fərmanı çıxan kimi barışığa, dinc danışığa gəliblər. Ən qatı cinayətkarları — yanvarın 9-da yaraqlı-yasaqlı Çaykəndə gedərkən yaxalanmış Şaumyan rayonunun rəhbər işçilərini də qaytarmağa hazırdırlar. Təki ara sakitləşsin, günahsız adamlar azad edilsinlər.

Səhərdən gözümüz yoldadır. hamı nigaran, hamı narahatdır. hələ ki, gələn-gedən yoxdur. Düşünürəm: axı niyə belə olub? Nə üçün vəziyyət bu çür dözülməz həddə çatıb?

Bir ara sez yayıldı ki, Şaumyandan meşələrin içi ilə Mardakertə xəlvəti yol çəkilir, Qoymayaq! Çünki quldur yolu olacaq. Gərək qabağı alınsın. [9-10]

Alınmadı, Meşələri qırıb yol çəkdilər. Ara qarışan kimi qalxdılar ayağa ki, yönümüz Dağlıq Qarabağadır, biz ora birləşmək istəyirik. Bu yandan da Çaykəndə əl atdılar. Tələm-tələsik yol-iz sahmanlandı, dedilər: aralıqda bircə kənd durur — Todan kəndi. Oranın adamlarını qaçırmağa nə var ki?!

Ermənistandakı «xeyirxah» cinayətkarlar da bir ucdan fitnəkarlıq elədilər. Gəncəbasarın narahat günləri başlandı. Əvvəlcə Çaykənd ətrafına, Göygöl zonasına gəlib-gedənin ayağını kəsdilər. Sonra da yol-izdəkilərə cumdular. Elə ki, yanvarın əvvəlində Stepanakertdə Sov. İKP MK katibi A.N. Girenkonu, SSRİ Ali Soveti Millətlər Sovetinin sədri R.N. Nişanovu və Azərbaycan KP MK-nın ikinci katibi V.P. Polyaniçkonu şəhərə buraxmadılar, burada da saqqallıların ayağı yer aldı. Ermənistan SSR Ali Soveti Şaumyan rayonu və Çaykənd qarışıq Dağlıq Qarabağın illik büdcəsini müzakirə edəndə Çaykənd, sözün tam mənasında, döyüş bayrağını qaldırdı. Ölənlərin, yaralananların və girov götürülənlərin sayı hər gün, hər gecə artdı.

Gəncədə, Xanlarda şəhid məzarlarının sayı çoxalır. Ruzigar Qasımov, Abbasqulu Məmmədov, Bəxtiyar Əliyev, Neyman Vəliyev, Bayram Nəsibov, Əliqara Əlihüseynov, Səbuhi Firudinoğlu... hamısı da yeniyetmə, cavan...

Şaumyanın «yolunu kəsən» Todan kəndi mühasirəyə alındı. Kəndin yeri narahatdır. Dərənin içində yerləşir. Yuxarıdan hər şey ovuc içi kimi görünür. Yuxarıda saqqallıların tankları, pulemyotları düzülüb. Təpələrin birində doludağıdan nəhəng top da döyüşə hazır vəziyyətdədir. Todanda kimsə tərpənən kimi avtomat, karabin ataş açır.

Nəzər Şahrzayevlə söhbət elədim. Sadə kənd adamıdır. Bir axşam çöldən qayıdanda görür ki, lələ köçüb, yurdu qalıb. Kəndi viran ediblər. Arvad-uşağın hərəsi yol maşını ilə bir yana səpələnib. Yaralı oğlunu qanı axa-axa Şaumyan rayonuna aparıblar. İndi yazıq kişi içini yeyə-yeyə qalıb. Bilmir ki, balasının başına nə oyun açılıb. Azı min nəfərlik kəndin yarısı pərən-pərən düşüb. Qalanı da bu kökdə. Camaat adamın üzünə ağ olur:

— Qonşular şıdırğı silahlananda bizim olan-qalan ov-quş tüfəngimizi də elimizdən aldılar. İndi onlar yaraqlı-yasaqlı gəlirlər. Biz isə əliyalınıq... [10-11]

Ətraf kəndlərin adamları yığışmağa, müdafiə dəstələri düzəltməyə məcbur olurlar. Milis, Xalq Cəbhəsinin fəalları, yerli camaat gecə-gündüz qan-qadanın qarşısını almağa çalışırlar...

...Dağların dalından gurultu ilə iki vertolyot çıxdı. Stepanakert səmtindən gəlir. İkisi də tünd yaşıl rəngdədir. Ulduzları aydın seçilir. Bəs nömrə nişanları? Lap yaxına çatanda da baxdım — heç nə görünmür, bilinmirdi. Beləcə, arın-arxayın ötüb Çaykəndə tərəf keçdilər. Axşam saat 5-ə işləyəndə Şaumyan səmtindən iki maşın görünür. hər şey detektiv filmlərdə olduğu kimi gedir. Maşınlar məntəqəyə azacıq qalmış dayanır. Əvvəlcə əli avtomatlı bir dəstə əsgər düşür. Sonra da iki zabit. Quru, rəsmi bir görüş. Sərt, inamsız baxışlar. Birlikdə taxta budkaya qalxırıq. Qapı örtülür. Danışıqlar başlanır. Şaumyan tərəfdən—rayonun hərbi komendantı podpolkovnik Nikolay Qnes və onun köməkçisi, biz tərəfdən—Xanlar Rayon Daxili İşlər Şöbəsinin rəisi podpolkovnik Cavanşir Babayev və ictimaiyyətin bir neçə nümayəndəsi.

Birinci tələb. Qarşıdurma ilə heç bir əlaqəsi olmayan 10 nəfər azərbaycanlı, evdar qadın və iki yaşlı uşaq təcili surətdə buraxılsın. Podpolkovnik Qnes cavab verir ki, rəhbərliklə bu barədə danışılıb. Məsələ hökmən həll olunacaq.

İkinci tələb. Elektrik xəttini düzəltmək üçün Gəncədən köməyə gəlmiş mütəxəssislər, xidməti vəzifə başında olmuş milis zabiti, meşə işçiləri, sürücü və çobanlar qaytarılsın. Əvəzində yanvarın 9-da əli silahlı Çaykəndə kələn Şaumyan rayonunun rəhbər işçiləri veriləcək. Bircə şərtlə: onlar gərək respublikamızı tərk etsinlər.

Komendant Qnes bildirir ki, şəxsən özü razıdır, amma məsləhətləşmək gərəkdir. Növbəti görüşdə dəyiş-düyüşün əməli tərəfləri dəqiqləşdiriləcək. Sonra komendant xəbər alır ki, Şaumyanda yaşayan ruslara iradınız varmı?

Yığışanların hamısı bir ağızdan dillənir: Qətiyyən! Bəlkə onların sözü-söhbəti, gileyi var?

Qnes ilk dəfə gülümsünür:

— Əksinə, onlar sizdən çox razılıq edirlər.

Elə bu ara Ballıqaya kəndindən qan-tər içində bir dəstə adam gəlir.[11-12]

— Bizi dinc qoymurlar,—deyirlər.—Təzəlikcə yeddi ailənin arvad-uşağını başqa kəndə köçürməyə məcbur olduq.

Komendantdan xəbər alırlar:

— Bütün erməni kəndlərini hərbi qüvvələr qoruyur. Bəs azərbaycanlılar yaşayan yerləri kim mühafizə etməlidir? Todan, Başqışlaq və Ballıqaya əslində sahibsiz qalıb.

Komendant razılaşır:

— Mən təzə gəlmişəm, — deyir. — Bu məsələni təcili nizama salaram.

Yaxın günlərdə daha konkret söz-söhbət üçün görüşmək ümidi ilə ayrılırıq».

Bu da reportajın Gəncədə yazılmış son parçaları:

«...Axşam Gəncəyə qayıdanda gördüm ki, burada nisbətən sakitlikdir, Şəhərin ahəngi pozulmayıb. Vəziyyət Mərkəzi televiziyanın qəribə dramatik rejissor quruluşu, aktyor bəlağəti ilə haray saldığı qədər dəhşətli deyil. Gəncənin partiya və sovet təşkilatları, Xalq Cəbhəsinin fəalları, inzibati orqanların, hərbi hissələrin qüvvələri təmkinlə iş aparır, fikir mübadiləsi edir, yollar axtarırlar.

Gəncəbasarda gərginlik əsasən Çaykənd sarıdandır. Burada yaşayan erməni ailələri çoxdan köçüblər. İndi yalnız kənardan kələn saqqallı quldur dəstələri yuva salıb. Hər an bir fitnəyə əl atırlar. Gəncə şəhərinə içməli suyun bir hissəsi Göygöldən gəlir. «Ağ su» deyirlər buna. Çaykənd zonasından keçir. İki gündür ki, bu güclü su çeşməsi qərəzlə kəsilib. Şəhərin içməli su ilə təchizatı xeyli çətinləşib. İctimai yerlərdə, müalicə ocaqlarında və uşaq tərbiyə müəssisələrində su qıtlığı yaranıb. Bu isə Gəncəbasar zonasında onsuz da çətin olan vəziyyəti bir az da gərginləşdirib. Çaykəndlə heç bir əlaqəsi olmayan həmin araqarışdıranlar uzaqlaşdırılarsa, bu yerlərdə tam əmin-amanlıq yarana bilər.

Şəhərin, axır ki, yenicə bərpa edilmiş ulu adı, təəssüf, çox təəssüf ki, Mərkəzin dilində ilk dəfə Ali Sovetin fərmanı kimi sərt bir sənəddə səsləndi. Üstəlik, tələb olundu ki, vəziyyət tələb edərsə, Bakıda və Gəncədə qadağan saatı qoyulsun. Mərkəzi mətbuatın hay-küyünə baxmayaraq, Gəncədə bu ciddi tədbirə əl atılmasına heç bir ehtiyac yoxdur». [12-13]

Sitatın çox uzun olmasına görə məni qınamayın: «Çəkən bilər bu dərdi». Qələm dostumun bu reportajı Şənbə keçəsinə aparan yola salınmış güclü projektor işığına bənzəyir. Heç nə qaranlıq qalmır, heç bir gümana, şübhəyə, fərziyyəyə əl yeri yoxdur. Yanvarın 18-də axşamçağı Ə.İsayevin diqtə etdiyi bu sətirlər də gözləri kor, qulaqları kar tarixin boz üzünə çəkilən şillədir:

«Şaumyan rayonundan yenicə gəlmiş Bilal Verdiyev mənimlə söhbət zamanı dedi:

— Bu rayonda müxtəlif erməni quldur dəstələri fəaliyyət göstərir. Stepanakertdən və onun ətraf kəndlərindən yığışanlar, Ermənistandan gələnlər və bir də xarici ölkələrin nümayəndələri. Yerli camaat özünü nisbətən, təkrar edirəm, nisbətən sakit aparır. Bizi əslində ölümdən onlar xilas etdilər. Kənardan gələnlər isə hər vasitə ilə aranı qızışdırır, hamını döyüşə sövq edir, rayondan köçüb getmək istəyənləri hədələyir, incidirlər. Mən dəfələrlə yerlilərlə gəlmələr arasında ciddi mübahisə və münaqişələrin şahidi olmuşam. Bir daha görmüşəm ki, erməni quldurlarının dalında Azərbaycan xalqına qatı düşmən olan güclü qüvvələr dayanır».

Piri Məmmədovun Naxçıvandan verdiyi telefon məlumatı yığcam olsa da, çox şeydən xəbər verir—bu xəbər də mətbuat səhifələrində işıq üzü görməyib:

«Yanvarın 15-də səhər saat 6 radələrində təqribən 400 nəfərlik silahlı erməni quldur dəstəsi İliç rayonunun Kərki kəndini mühasirəyə almışdır. SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin əməkdaşı, kapitan M.P.Tatıyevin verdiyi məlumata və ilkin mənbələrə görə, güclü atışma nəticəsində iki nəfər yaralanmış, iki nəfər itkin düşmüşdür. Altı ev yandırılmışdır. Rayonun hüquq mühafizə orqanlarının qüvvələri mühasirəni yarıb silahsız əhaliyə kömək göstərmək, qadınları və uşaqları, qocaları xilas etmək üçün bütün imkanları səfərbərliyə almışlar.

Ermənistan tərəfi ilə Babək rayonunun Gərməçataq kəndi arasında da atışma olmuşdur. Burada tələfat yoxdur.

Muxtar respublikanın hər yerində, xüsusən sərhəd kəndlərində təhlükəli vəziyyət artır. Qatarlar işləmir. Xalq təsərrüfatı yükləri daşınmır. Muxtar respublikanın xarici mühitlə əlaqəsi yalnız təyyarə ilədir».[13-14]

Sahmanlanmamış arxivimdə SİTA və Azərinformun materiallarından ibarət xeyli teletayp lenti var. Onların hamısı bu və ya digər mülahizələrə görə çap üzü görməyib. Əksəriyyəti Qarabağla bağlıdır, çoxu da ya informasiyanı açıqlamaq, xalqa bildirmək baxımından Azərbaycan KP MK rəhbərliyinə əl verməyən yazılardır, ya da məsələnin şərhində açıq-aşkar qərəzçilik, «günahı tən bölmək» meyli duyulur və güman edildiyinə görə, belə materialların dərc olunması «adamların coşmuş ehtiraslarını» daha da coşdura bilərdi.

Həmin lentlərdən biri ilə — əvvəli yanvarın 15-də saat 23.23 - də (1), ikinci hissəsi isə ertəsi gün saat 9.28 - də verilmiş və təkcə Azərbaycan qəzetlərində deyil, mərkəzi qəzetlərdə də dərc olunmasının qabağı alınmış (təbii ki, müvafiq kanallar işə düşdükdən sonra SİTA-nın göstərişi ilə!) reportaj bu mənada səciyyəvidir. Stepanakert ünvanlı bu lentdə reportaj müəllifinin (və ya müəlliflərinin) familiyası göstərilməyib, lakin həmin vaxtlar SİTA xətti ilə V. Bırkinin və S. Qondusovun DQMV mövzusu üzrə «ixtisaslaşdıqlarını» nəzərə alsaq, fəhmlə güman edirəm ki, dəst-xətt onlarındır:

«STEPANAKERT, 15 yanvar (SİTA). Ötən gecə Stepanakertin şəhərətrafı Kərkicahan qəsəbəsində ermənilərlə azərbaycanlılar arasında atışma olmuş, bir erməni evi və üç azərbaycanlı evi yandırılmışdır. DQMV Daxili İşlər İdarəsinin şəhadətinə görə, hadisə yerinə gəlib çıxmış yanğınsöndürənlər atəşə tutulmuş və geri qayıtmağa məcbur olmuşlar. Atışma zamanı zərər çəkənlər barədə məlumat daxil olmamışdır.

DQMV bu gün cəbhəyanı zolağı xatırladır. Kəndlərdə səngərlər qazılır, yolların bir çoxunda qalaqlar qurulur, «özünümüdafiə postları» gücləndirilmişdir. Beşinci gündür ki, yük qatarları gəlmir — vilayətin blokadası bərpa olunmuşdur. Ərzaq məhsulları, yanacaq ehtiyatları tükənmək üzrədir.

Azvrbayçan SSR-in muxtar vilayətinin qonşuluğundakı Şaumyan və Xanlar rayonlarında yenə qan axıdılır. Bu rayonlarda daxili qoşun bölmələrinin sayı artırılmışdır, buradakı Hacıkənd kəndinə silahlı terrorçuların böyük qüvvələri də axışıb gəlməkdədir. Onlarda hərbi texnikanın, avtomatların, qumbaraların olması vəziyyəti mürəkkəbləşdirir. Hərbçilərin dediyinə görə, döyüş əməliyyatları yerinə doludağıdan zenit qurğularının gətirilməsi nəzərdə tutulur; həmin qurğulardan hərbi vertolyotlara atəş açmağa başlamışlar. [14-15]

Erməni kəndlərini müdafiə etmək üçün bu iki rayona avtomat silahlarla silahlanmış erməni yaraqlıları da gəlməkdədirlər. Məlum olmuşdur ki, Gəncədə və Yerevanda cinayətkar ünsürlər bu silahın böyük bir dəstini ələ keçirmişlər (...).

(...) Azərbaycanın alovlandığı və Ermənistanın gur-gur gurladığı, Azərbaycan SSR-in Şaumyan və Xanlar rayonlarında iki xalqın təmasının qorxulu olduğu günlərdə Bakıda milli müdafiə komitəsinin, Yerevanda isə milli qurtuluş qərargahının yaradıldığı elan edilmişdir. Bu nədir, vətəndaş müharibəsinə doğru aparan yoldurmu? «Qarabağ problemi»nin iki ildə həll olunmamasının yekunu hələlik budur.

SSRİ Daxili İşlər Nazirliyi operativ qrupu rəhbərinin müavini milis polkovniki A. Solodovnikov SİTA-ın müxbirinə demişdir:

—Fövqəladə şərait fövqəladə tədbirlər görməyi tələb edir. Sülhə çağırmaq nəinki kifayət deyildir, həm də sülhü müdafiə etmək lazımdır. Mümkün olan hər cür vasitələrlə».

Bax, belə! Nə az, nə azacıq: HƏR CÜR(?!!) VASİTƏLƏRLƏ!!! Bu «qətiyyət» — belə çıxır ki, həmin günlərdə Mərkəzin, deməli, həm də respublikanın rəhbərliyinə məlum olan, lakin yaranmış informasiya blokadası və imperiya amirliyi siyasətinə xas olan mübhəmlik üzündən sorağı xalqa çatmayan «tədbirlər» planı yalnız «Qara yanvar. Bakı—1990» məcmuəsindən xəbər tutduğum sənəddə—Sov. İKP MK-nın, SSRİ Ali Soveti Rəyasət heyətinin və SSRİ Nazirlər Sovetinin «Azvrbayçan və Ermənistan xalqlarına» məktubunda da əksini tapıbmış. Yanvarın 19-da Moskva qəzetlərində dərc olunmuş həmin məktubun bir yerində deyilir: «Sovet adamları Dağlıq Qarabağ Muxtar Vilayətində və Azərbaycanın, habelə Ermənistanın bəzi digər rayonlarında (qəribə səslənsə də, [15-16] mətndə məhz belədir — Ş. Y.) fövqəladə vəziyyət elan etmək barədə SSRİ Ali Soveti Rəyasət heyətinin fərmanını başa düşərəkdən qəbul etmişlər, Onlar buna məcburi, lakin tamamilə haqlı olaraq atılmış addım kimi baxır, bizdən ən qətiyyətli tədbirlər görməyi tələb edirlər. Ölkənin rəhbərliyi də bildirir: lazım olan bütün tədbirlər görüləcəkdir».

Daha bir yazı: «Yollar niyə kəsilib?». Onu Tahir Aydınoğlu hazırlamışdı. Yanvarın 18-də səhərdən Bakının küçələrində idi. Yazını katibliyə həmin gün axşamtərəfi təqdim etmişdi. Qəzetin 19 yanvar nömrəsində dərc ediləcəyini nəzərə alaraq, təhkiyəni «dünən» formasında aparıb:

«Biləcəri qəsəbəsi tərəfindən Bakıya daxil olan baş yolda nəqliyyatın hərəkəti həmişə sıx olur, Adətən, yağışlı-qarlı günlərdə magistralın birinci mikrorayona qovuşduğu yerdəki yoxuşun müxtəlif yerlərində maşınlar sürüşüb köndələninə dayanır: gediş-gəliş kəsilir, adamlar bəzən növbəti dayanacağa qədər piyada gəlməli olurlar. Yoxuşu götürmək, bu çətinliyi aradan qaldırmaq üçün bir ildir ki, yolda əsaslı təmir-tikinti işləri aparılır. Yollarda qardan, buzdan əsər-əlamət olmadığı dünənki mülayim qış günündə burada müxtəlif markalı yüzlərlə yük maşını yenidən köndələninə yolları kəsmişdi. Bu dəfəki tıxacı təbiət deyil, son günlər baş verən hadisələrdən həyəcanlanmış şəhər əhalisi yaratmışdır.

Hadisə yerində «KamAZ» markalı yük maşınına söykənib papiros çəkən ağ saçlı sürücüyə yaxınlaşdıq. Vəziyyətə münasibətini soruşduq. Yorğun və əsəbi halda cavab verdi: «...Birinci dəfədir ki, özüm öz yolumu kəsirəm. Eşitmişik ki, şəhərimizdə yenidən qadağan saatı tətbiq etmək üçün kənardan qoşun hissələri gətirilir. Buna Bakının dinc həyatını pozmaqdan başqa nə ad vermək olar? Əsgərləri Bakıya yox, Ermənistanla həmsərhəd zonalara, hər gün günahsız adamların basqınlara məruz qaldığı, qanlarının axıdıldığı rayonlara aparmaq lazımdır. Etirazımızı hamılıqla bildirmək üçün şəhərin giriş yollarına çıxmışıq. Bakıya qoşun hissələri gətirilməsinə yol verməyəcəyik!».

Yolun sıx kəsildiyi başqa yerdə bir nəfər səkinin üstünə çıxıb toplaşanlara ucadan deyirdi: «Görün bizi hara gətirib çıxartdılar. Bir ölkədə yaşayasan, adını Sovet Sosialist Respublikası qoyasan, min illər od-ocaq qonşusu olduğun xalqın torpağına göz dikəsən?! Adamı ağrıdan odur ki, 1988-ci ilin [16-17] fevralında hər şeyə asanlıqla son qoymaq olardı. Gün kimi aydın bir həqiqəti—Azərbaycan xalqına qarşı ermənilərin təcavüzünü görməyə o vaxtdan bəri nə mane olub, kim mane olub?».

Yolu müxtəlif yerlərdən kəsmiş maşınların hamısının yanında belə söhbətlər gedirdi. Hamı Azərbaycan xalqının başına gətirilmiş olmazın müsibətlərdən son dərəcə qəzəblə, həyəcanla danışır, xalqın yuxusuna belə girməyən hadisələrin səbəbkarlarını lənətləyir, yurdumuza dincliyi qaytarmaq üçün birgə, ağıllı mülahizədən başqa yol olmadığını qeyd edirdi.

...Bütün bu söhbətləri dinləyərkən fikirləşirdik: «Doğrudanmı Bakıda fövqəladə vəziyyət, qadağan saatı tətbiq ediləcək? Bu, ağlasığmaz, böyük müsibətlər, bəlalar gətirə bilən tədbir olardı».

...Həmin 18 yanvar günü Moskvada fəhlə və kəndli nümayəndələrinin Ümumittifaq müşavirəsi açılmışdı. (Çox-çox sonralar — «91-ci ilin avqust qiyamı» deyilən məzhəkədən sonra «köhnə bolşevik» Yeqor Liqaçov keçmiş Baş katibin ünvanına gileylənib deyəcək ki, bu, fəhlə-

kəndli sinfinin nümayəndələri ilə yeganə görüş idi, halbuki o, ziyalıların nümayəndələrini beş-altı dəfə Kremlə yığmışdı). Müşavirənin ikinci günü səhər iclasının əvvəlində ölkənin və partiyanın başçısı bəlağətlə təxminən bu sözləri demişdi: «Orada, Bakıda vəziyyət gərgindir: Sovet hakimiyyətini devirmək, islam respublikası qurmaq istəyirlər. Bütün sovet xalqının mənafeyini və tələbini nəzərə alaraq biz tədbir görməyə məcbur olmuşuq...».

Müşavirənin gedişi barədə SİTA-nın hesabatı olan teletayp lentini günortaüstü almışdıq. Təxminən beşin yarısında aldığımız başqa bir lent (təəssüf ki, onun nə vaxtsa ittiham sənədinə çevrilə biləcəyini anlamamış və qoruyub saxlaya bilməmişəm) «Zarubejnıye otkliki o sobıtiyax v Zakavkazye» qeydi ilə başlanırdı. (Dəqiq yadımdadır: saat dərddən keçmişdi. Səhərdən MK-nın qarşısındakı mitinqdə olmuşdum. Təxminən saat 2-də redaksiyaya qayıdanda yenə bilmirdim ki, qəzetlər bu axşam çıxacaq yoxsa yox? hər ehtimala qarşı, nömrə üçün materialları cəmləsəm də, hələ onları səhifələr üzrə maketləşdirməmişdim. "Redaksiyada üç-dərd nəfər vardı — hamı şəhərdə idi. Teletayp otağına qalxıb[17-18] təzəlikcə daxil olan materialları götürüb, redaktor əvəzi qalmış Rəfail Nağıyevin otağına qayıtdım. İlham Rəhimli də yanında idi. İlham həmin axşam nömrənin növbətçi redaktoru idi; nömrənin aqibəti müəyyən olunmadığına görə işdən getməmişdi, oturub gözləyirdi. Bax, elə o vaxt həmin lent diqqətimi çəkdi). Birinci xəbər Londondan idi. Orada deyilirdi: Böyük Britaniyanın baş naziri M.Tetçer Zaqafqaziya hadisələrində M.S.Qorbaçovun tutduğu mövqeni bəyəndiyini bildirmiş və demişdir ki, əmin-amanlığı bərpa etmək üçün onun Bakıya qoşun yeritməkdən savayı başqa çarəsi yox idi...

**YERİ GƏLMİŞKƏN:**

**«— Neçə düşünürsünüz, Bakıya qoşun yeridilməsi zəruri idimi!**

— Zənnimcə, yox. heç olmasa yalnız ona görə ki, qoşun bu vaxt artıq şəhərdə idi.

**— Belə bir fakt var ki, 20 yanvarda qoşun sovet hakimiyyətini qoruyub saxlamaqdan ötrü yeridilmişdir. Belə bir söhbət gəzirdi ki, Xalq Cəbhəsi hamin məqamda hakimiyyəti ələ keçirməyə hazır idi.**

— Fikrimcə, bu, qoşunun yeridilməsi haqqında məsələyə bəsit yanaşma olardı. Əgər hadisə barədə ümumilikdə danışası olsaq, onda yəqin ki, bunun üçün rəsmi bəhanə yanvarın 13, 14 və 15-də baş verən hadisələr, dövlət sərhədinin dağıdılması olardı. Mənim fikrimcə, Mərkəz hadisələri müəyyən dərəcədə təhrik etdi. Əgər desək ki, Moskva Vəzirovu xilas etməyə çalışırdı — bu, gülünc çıxardı, ona görə ki, Moskva bu vaxt artıq bilirdi ki, Vəzirov siyasi lider kimi daha Azərbaycanda yaşamayacaqdır. Əgər respublikada partiya siyasətinin xilası barədə danışsaq, bu, güman olunan səbəblərdən biridir, lakin əsas olanı deyildir.

Məncə, ən vacib səbəblərdən biri, nə qədər qəribə görünsə də, bu olmuşdur ki, sözün həqiqi mənasında, bir-iki aya Qarabağ probleminin həll edilməsi imkanı yaranmışdı.

**— Nəyi nəzərdə tutursunuz!**

— O vaxtlar milli-azadlıq hərəkatının, onu belə adlandıraq, müəyyən dərəcədə müstəqil olaraq [18-19] bütün məsələləri, o cümlədən Dağlıq Qarabağla bağlı məsələləri həll edə bilməsi imkanı yaranmışdı. Əgər yadınızdadırsa, o vaxtlar milli özünümüdafiə dəstələri yaradılmışdı. Müxtəlif məlumata görə, müxalifət bu dəstələrin yardımı ilə praktik olaraq bütün rayonlarda vəziyyətə nəzarət edirdi. Proses elə bir səviyyəyə yüksələ bilərdi ki, onlar həmçinin Dağlıq Qarabağda da vəziyyətə nəzarət edə bilərdilər. Axı problem təkcə erməni millətçiliyi üzündən deyil, həm də mərkəzi hakimiyyətin göz yumması nəticəsində ortaya çıxmışdı. Bütövlükdə Zaqafqaziya bölgəsində təsir vasitəsi lazım idi. Ola bilsin ki, bu, təhqir kimi səslənsin, amma deməliyəm: bütöv bir millət üzərində eksperiment aparılırdı. Sovet İttifaqının digər bölgələrində baş verən hadisələr ilk dəfə Zaqafqaziyada, kəsə desək, Azərbaycanda sınaqdan çıxarılmışdı. Daha bir məqama da diqqət yetirmək lazımdır. Azərbaycan cənub istiqamətində az əhəmiyyətli hərbi-strateji platsdarm deyildir. Az adamlar bilir ki, həmin günlərdə Azərbaycanda taktiki nüvə silahları yerləşdirilmişdi. Sonra onu çıxarıb apardılar. Görünür, doğulmaqda olan yeni hakimiyyət orqanlarına bu silahlar və bu platsdarm üzərində nəzarət qoymağa imkan verilməməsi çox əhəmiyyətli idi. Bu, məncə, ən vacib səbəb idi».

**(Keçmiş DTK podpolkovniki O.Q. Əliyevin «Ayna» qəzeti müxbirinə müsahibəsindən — «Ayna», M 49, 1991-ci il).**

Qəribə şey idi: elə o dəm MK-nın binası qarşısında mitinq davam edirdi;

ölkə başçısının səlahiyyətli nümayəndəsi kimi guya münaqişəli vəziyyəti nizama salmaq üçün Bakıya gəlmiş SSRİ Ali Soveti İttifaq Sovetinin sədri, həmin an anasının və arvadının «xalis» erməni olması, özünün isə Tbilisinin ermənilər yaşayan məhəlləsində dünyaya gəlməsi, orada təhsil alması kimi faktların heç kəsin yadına düşmədiyi və heç kəsə heç nə demədiyi boz «yuloçka» paltolu Yevgeni Primakov mitinq iştirakçılarının qabağında dayanıb fısıltı qarışıq xırıltılı səsi ilə ucadandanışanla (həmin foto məndə indi də qalır) bildirirdi: Bakıda fövqəladə vəziyyət tətbiq olunmayacaq, başqa sözlə, qoşunlar şəhərə girməyəcək; [19-20] şəhərim əsas giriş yollarında, Salyan kazarmalarının qarşısında bənd-bərə qurulsa da, Bakıya tufanqabağı sükut çökmüşdü və başa düşmək olmurdu ki, Tetçer nədən danışır.

**YERİ GƏLMİŞKƏN:**

**«Şəhərdə piketlərin qurulması barədə AXC İdarə heyətinin qərarı olmuşdumu! İkincisi, yanvarın 19-da piketlərin götürülməsi haqqında qərar olubsa, nə üçün rayon şöbələrinə məlumat verilməyib!**

— Yalnız belə qərara gələ bilmişdik ki, piket rəhbərləri danışıqlar yolu ilə ordunu neytrallaşdırmalıdır. Əgər ordu hərəkətə gəlsə, dağılışmaq lazımdır, heç bir müqavimət olmamalıdır. Biz məsələni bu cür qoya bilmişdik. Və göstəriş vermişdik ki, qərar bütün şöbələrə, piketlərə çatdırılsın. Əgər o çatdırılmayıbsa, bu bizim işçilərin, bizim özümüzün günahımızdır».

**(Azərbaycan Xalq Cəbhəsi I qurultayı nümayəndələrinin suallarına İsa QƏMBƏROVUN cavablarından — «Azadlıq» qəzeti, 26) iyul 1991-ci il).**

«Doğrudanmı Bakıda fövqəladə vəziyyət, qadağan saatı tətbiq ediləcək? Bu, ağlasığmaz, böyük müsibətlər, bəlalar gətirə bilən tədbir olardı» — Tahir yanvarın 18-də belə yazmışdı və bu, qeyri-adi kəşf deyildi; Tbilisidə, hökumət evi qarşısındakı «meydan təmizlənərkən basabasda» 16 nəfərin həlak olması və bu faktın təkcə Sovetlər İttifaqında deyil, dünya ictimaiyyətində də amansız cəza tədbiri kimi qarşılanması idi bu qənaəti yaradan, bu peyğəmbərliyi doğuran.

**YERİ GƏLMİŞKƏN:**

«Hadisələrdən azca əvvəl Moskvadan — SSRİ DTK-dan sanballı rəhbər əməkdaşlar qrupu gəldi və mahiyyətcə bütün rəhbərliyi öz əlinə götürdü. Hər şeydən öncə, SSRİ DTK sədrinin birinci müavini Bobkovu, o vaxtlar SSRİ DTK sədrinin müavini, bu hadisədən sonra isə birinci müavini olmuş Akeyevi misal göstərə bilərik. Onlar əsas fəaliyyət göstərən şəxslər idilər. Bunlardan bir az aşağı vəzifəlilər — SSRİ DTK idarələrinin rəisləri və rəis müavinləri də vardı. Ümumi sayları 30 [20-21] nəfərdən az olmazdı. Bunlardan əlavə, SSRİ-nin müxtəlif bölgələrindən, ilk növbədə Rusiya Federasiyasından ezam olunmuş çoxlu əməkdaş da vardı. Görünür, onları əməliyyatın yerinə yetirilməsini «təmin etməkdən» ötrü buraya toplamışdılar. Məqsəd hazırda aşkarlanmışdır: Azərbaycana, xüsusən Bakıya qoşun yeridilməsinin qanunauyğunluğunu sübut etmək.

Faktik olaraq təkcə DTK deyil, digər respublika strukturları — DİN, Ali Sovet, prokurorluq, MK hər hansı bir iş görmək imkanlarından məhrum edilmişdi. Bakıda bu idarələrin hər birinin xətti ilə Moskvadan rəhbərlər vardı. Əgər yadınızdadırsa, Ali Sovetin xətti ilə o vaxtlar SSRİ Ali Soveti palatasının sədri Primakov gəlmişdi. Sov. İKP MK xətti ilə Mixaylov və Kirenko, DİN xətti ilə o vaxtlar SSRİ DİN naziri Bakatin özüydü. Yazov özü də buradaydı, onu sonra o vaxtlar quru qoşunlarının komandanı olan Varennikov əvəz etdi.

Biz də o vaxtlar öz qərarımızı qəbul etmək imkanından məhrum edilmişdik. Lakin SSRİ DTK mərkəzi aparat əməkdaşlarının gördüyü bütün tədbirlər respublika DTK-sının markası altında edilirdi. Və hamıda belə bir təəssürat yarandı ki, həbsləri və sair tədbirləri Azərbaycan DTK-sı keçirir, baxmayaraq ki, bizim əməkdaşların buna çox hallarda heç bir qarışacağı olmurdu.

Deyə bilərik ki, bizi qapazaltı etmişdilər, biz təcrid olunmuş şəraitdə qalmışdıq. SSRİ DTK ali rəhbərliyinin Azərbaycan DTK-sına etibar etmədiyini belə bir fakt da göstərir ki, Bakı şəhərinə qoşun yeridiləndən dərhal sonra qoşun generalları ilə yanaşı, DTK və DİN, xüsusi şöbə idarələri generallarının da iştirak etdiyi ali komanda heyətinin müşavirəsini keçirən general Varennikov çox ciddi şəkildə göstəriş vermişdi: bütün tədbirləri müstəqil şəraitdə görməli, heç bir halda Azərbaycan DTK-sının əməkdaşları ilə əlaqəyə girməməli. Mən əminəm ki, əgər biz özümüz fəaliyyətdə olsaydıq, o günlər baş vermiş kütləvi qan tökülməyə yol verməzdik».

**(Keçmiş DTK podpolkovniki O. Q. Əliyevin «Ayna» qəzeti müxbirinə müsahibəsindən — «Ayna», №49, 1991-ci il).** [21-22]

...Şənbə gecəsinin bütün dəhşətini bütün sinirləri ilə yaşamış və bu yaşantını təsvir eləməkdə həqiqətən aciz olan yüzlərdən, minlərdən biri kimi, yanvarın 20-də səhər saat 7 radələrində evdəki «beşmanatlıq radio»dan uzaqgörənlikdə mənim cavan həmkarımdan da geri qaldığını sübut edən Mixail Qorbaçovun yanvarın 19-da imzaladığı, lakin ilk dəfə yanvarın 20-də səhər elan olunan fərmanı eşidəcəkdim: «Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq olunması haqda» SSRİ Ali Soveti Rəyasət heyətinin fərmanını. Üstündən on ay yarım keçəndən sonra Nobel mükafatına layiq görüləcək, bütün dünyada «sülhsevər, insan hüquqları uğrunda mübariz» kimi tanınacaq bu «siyasi xadim» öz xalqının qətlinə fərman verərkən SSRİ Konstitusiyasının 119-cu maddəsinin 14-cü bəndini əsas tutduğunu bildirəcəkdi. Taleyin oyununa bax ki, Leninqradlı SSRİ xalq deputatı A.A.Şelkanov Sovet İttifaqının ilk prezidenti vəzifəsini tutmağa yeganə namizədi Bakı faciəsi üstündə ittiham edərkən Konstitusiyanın elə həmin maddəsinə isnad etmişdi:

«Belə hesab edirəm ki, məhz bu gün müzakirə olunan namizədin rəhbərliyi altında Bakıda Yanvar hadisələrinə dair çıxarılmış qərarda antidemokratiklik özünü büruzə vermişdir. Bu halda Konstitusiya iki dəfə — 119-cu maddənin 13 və 14-cü bəndləri kobudcasına pozulmuşdur».

Şelkanov bu sözləri təxminən iki ay sonra — 90-cı il martın 13-də SSRİ xalq deputatlarının növbədənkənar üçüncü qurultayında söyləyəcəkdi. Həmin qurultaydan təxminən 8 ay sonra bədnam Qarabağ hərəkatının ilhamçısı və baş ideoloqu L.Ter-Petrosyan Ermənistan Ümummilli hərəkatının qurultayında çıxış edərkən deyəcəkdi:

«Bizim hərəkat, bizim hakimiyyət orqanları Ermənistanın yadelli qoşunlar tərəfindən işğalının qarşısını almağa müvəffəq oldular. Ona görə ki, vətəndaş müharibəsinin ardınca labüd surətdə Ermənistan sovet qoşunları tərəfindən işğal ediləcəkdi. Necə ki, Azərbaycanda belə oldu».

Bütün bunlar sonra, çox sonra olacaqdı. Yanvarın 20-də axşam saat səkkiz radələrində isə Bakı radiosu Azərbaycan və rus dillərində respublika Ali Soveti Rəyasət heyətinin sədri Elmira Mikayıl qızı Qafarovanın ən acı nifrin, ən ağır qarğış kimi səslənən bəyanatını dünyaya yayacaqdı: [22-23] «Azərbaycan xalqı, respublikanın bütün vətəndaşları adından Azərbaycan SSR-in suverenliyinin kobudcasına pozulması və SSRİ Ali Sovetinin Rəyasət heyəti tərəfindən respublikanın paytaxtı Bakı şəhərində fövqəladə vəziyyətin elan edilməsi ilə əlaqədar qəti etirazımı bildirirəm...

Bütün məsuliyyəti ilə bildirirəm ki, Bakıda fövqəladə vəziyyətin tətbiq edilməsi barədə Azərbaycan SSR-in ali hakimiyyət və idarəetmə orqanları tərəfindən qərar qəbul edilməmiş və SSRİ Ali Sovetinin bu cür qərar qəbul etməsi üçün razılıq verilməmişdir. Tökülən qanlar üçün bütün məsuliyyət SSRİ-nin o orqanlarının və vəzifəli şəxslərin üzərinə düşür ki, onlar həmin qərarı qəbul etmiş və onu bilavasitə yerinə yetirmişlər.

Azərbaycan xalqı əz oğul və qızlarının faciəli surətdə həlak olmasını heç kəsə bağışlamayacaqdır».

Təxminən həmin vaxtlarda dünyanın ən müxtəlif radiostansiyalarının dalğalarında Sov. İKP MK-nın Baş katibinə Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadənin müraciətinin mətni səslənəcəkdi. Şeyx həzrətləri beynəlxalq diplomatiya etiketində qəbul olunmuş bütün nəzakət qaydalarını bir kənara tullayıb hiddət və nifrətdən doğrulmuş müraciətini bu sözlərlə başlayacaqdı:

«Mən hansı sözləri işlədirəmsə-işlədim, Azərbaycan xalqının bütün kədərini, milyonlarla ürəkdə həmişəlik iz qoymuş intəhasız dərdi ifadə edə bilməyəcəyəm.

Bunu ona görə demirəm ki, dərdimizə şərik çıxasınız, halımıza acıyasınız, bu, xalqım üçün təhqir olardı, həlak olmuş həmvətənlərimin xatirəsinin həyasızcasına ələ salınması demək olardı.

Yanvarın 19-dan 20-nə keçən gecə Bakıda törədilmiş vəhşiliklər ağlasığmazdır. Şəhərin küçələri yüzlərlə günahsız adamın, o cümlədən uşaqların, qocaların al qanına boyanmışdır. Tankların tırtılları altında əzilmiş, yaxın məsafədən pulemyot və avtomat atəşləri ilə öldürülmüş adamların eybəcər şəklə düşmüş meyitləri tük ürpədir.[23-24]

Dövlət başçısı kimi sizin icazə verdiyiniz bu qanlı qırğına, bu dəhşətli cinayətə haqq qazandırmaq heç çur mümkün deyil...».

Taleyin istehzasına bax: elə həmin axşam Moskva vaxtı ilə saat 22-də ölkənin gələcək prezidenti televiziya kameralarının qarşısında arın-arxayın oturub sovet xalqına (həmin «sovet xalqı»nın bir hissəsi olan biz azərbaycanlılar o vaxt bundan xəbər tutmayacaqdıq — qəzetlər çıxmırdı, radio işləmirdi, televiziya isə açıq-aşkar susdurulmuşdu — yanvarın 19-da saat 19.35 - də teleməркəzi partlatmışdılar) müraciətlə deyəcəkdi:

«...Siz bilirsiniz ki, SSRİ Ali Soveti Rəyasət heyətinin fərmanı ilə Bakıda fövqəladə vəziyyət elan edilmiş, daxili işlər nazirliyi qoşunlarının və sovet ordusunun bölmələri şəhərə girmişdir. Onlar əsas obyektləri tutmuş, dövlət idarələrini nəzarət altına almışlar, talançılara, şuluqların təşkilatçılarına və fitvaçılarına qarşı qəti tədbirlər görülür...

Sovet ordusunun və daxili qoşunların əsgərləri və zabitləri SSRİ Konstitusiyasının və qanunun müdafiəsi sahəsində öz borcunu yerinə yetirirlər...».

Nobel mükafatının gələcək laureatı kamera qarşısında oynadığı rolun öhdəsindən məharətlə gələcək, lakin elə həmin çıxışında «ölkəmizin bütün xalqları tərəfindən başa düşüləcək, təqdir ediləcək» tədbirlər adlandırdığı tədbirlərin əsl mahiyyətini açmayacaq, həqiqəti deməyəcəkdi. Fevralın 5-də, Sov. İKP MK plenumunda dedikləri də iki həftə əvvəlki fikrin təkrarı, başqa sözlə, bir üzü olan həqiqətə açıq-aşkar böhtan, xalqımıza qarşı növbəti iftira olacaqdı: «Sovet ordusunun və daxili işlər nazirliyi daxili qoşunlarının əsgər və zabitləri xalq qarşısında yüksək **məsuliyyət** hissi, **mərdlik, səbr** göstərmiş, bununla da **qanlı qırğının genişlənməsinin** qarşısını almış, adamların **həyatını xilas etmiş,** regionda vəziyyətin **dinc məcraya** (ayırma mənimdir — **Ş. Y.**) düşməsi üçün zəmin yaratmışlar».

**YERİ GƏLMİŞKƏN:**

«1990-cı il yanvarın 19-dan 20 - nə keçən gecə Bakıda amansızlığına görə dəhşətli olan, dinc əhalinin kütləvi surətdə qırılmasına gətirib çıxaran cinayətkarlıq hərəkəti törədilmişdir. Bu hərəkət Azərbaycanın bütün çoxmillətli xalqını dərindən sarsıtmışdır. [24-25]

İttifaq hakimiyyət orqanları ölkənin qanunlarını və beynəlxalq hüquq normalarını saya almayaraq, Azvrbayçan SSR-in suveren hüquqlarını qulaqardına vuraraq, SSRİ-nin təşkil edilməsi haqqında müqavilənin şərtlərini, SSRİ Konstitusiyasını və Azərbaycan SSR Konstitusiyasını kobudcasına pozaraq, respublikanın ali dövlət hakimiyyəti orqanlarının razılığı və fövqəladə vəziyyəti reqlamentləşdirən qanunvericilik aktı olmadan qoşunları qanunsuz surətdə Azərbaycan Sovet Sosialist Respublikasına yeritmiş və onun paytaxtı Bakı şəhərində fövqəladə vəziyyət elan etmişlər.

Şəhərin sakinləri fövqəladə vəziyyət tətbiq ediləcəyi barədə qabaqcadan xəbərdar edilməmişdilər. Tədbir başlanandan ancaq 7 saat sonra hərbi komendantın elanı oxunmuşdur. Əməliyyata SSR İttifaqının quru, hərbi dəniz, hərbi hava və hava desantı qoşunlarının iri dəstələri, habelə SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin və daxili işlər nazirliyinin xüsusi təyinatlı qoşunları cəlb edilmişdilər. Həmin qoşun hissələrinin və birləşmələrinin Bakı şəhərinə yeridilməsi hərbi qulluqçular tərəfindən humanizmə zidd, amansız hərəkətlərlə müşayiət olunmuşdur. Gözə dəyən hər kəs öldürülürdü, yaşayış evləri və tibb müəssisələri atəşə tutulurdu. «Təcili yardım» maşınları, yaxınlıqdan keçən və yol kənarında dayanan avtomobillər tankların altına salınıb əzilirdi, yaralananlar sonradan bir də vurulub öldürülürdü, yerlərdə təxirəsalınmaz yardım göstərən tibb işçiləri güllələnirdi.

İlkin məlumata görə, bu günədək dinc sakinlərdən 168 nəfəri öldürülmüş, 175 nəfəri yaralanmış və bədən xəsarəti almışdır. 400-dən çox adamın taleyi məlum deyil. Onların arasında qadınlar, qocalar və uşaqlar, azərbaycanlılar, ruslar, tatarlar və yəhudilər vardır. Ölüm bir çoxlarını mənzillərdə, evlərin girəcəklərində, avtobuslarda və iş yerlərində yaxalamışdır. Yeni-yeni qurbanlar və [25-26] aldığı yaralardan ölənlər haqqında bu günədək xəbərlər gəlməkdədir. hərbi qulluqçuların 28 nəfəri həlak olmuş və 80 nəfərindən çoxu yaralanmışdır, onların bir çoxu komandanlığın uzlaşdırılmamış hərəkətləri nəticəsində əz yoldaşlarının əli ilə öldürülmüşdür.

Sübhçağı bakılılar dəhşətli mənzərənin şahidi olmuşlar: onlar dinc sakinlərin al qanına bulaşmış asfaltı, eybəcər hala düşmüş meyitləri, əzilib yastılanmış və güllələrdən dəlik-dəlik olmuş avtomaşınları, yaşayış evlərinin və xəstəxanaların, o cümlədən uşaq xəstəxanasının atəşə tutulmuş binalarını görmüşlər.

Həmin vaxt Bakı şəhərində yaranmış real vəziyyət aşağıdakı amillərlə bağlı olmuşdur:

**əvvəla**, millətlərarası ədavəti qızışdırmaq və DQMV-ni Azərbaycan SSR-dən qoparmaq üçün erməni ekstremist millətçilərinin hüquqa zidd məqsədyönlü hərəkətlərini ardıcıl surətdə və müvəffəqiyyətlə həyata keçirməsidir ki, buna da SSR İttifaqı tərəfindən müvafiq münasibət göstərilməmişdir. Məsələn, 1989-cu ilin təkcə avqust — dekabr dövrü ərzində Ermənistan SSR ərazisindən silahlı qrupların 91 dəfə Azərbaycan kəndlərinə soxulması və atəşə tutması qeydə alınmış, bunun nəticəsində Azərbaycan SSR-də 52 nəfər həlak olmuş və 166 nəfər yaralanmışdır;

**ikincisi,** DQMV-də və onun ətrafında münaqişənin süni surətdə uzadılması, Mərkəzin alayarımçıq, həyata keçə bilməyən qərarlar qəbul etməsi, konstitusiya əsasında konkret, birmənalı qərarlar qəbul edən məsələlərdə qarşılıqlı güzəştlər taktikasının tətbiq olunmasıdır;

**üçüncüsü,** zor işlətməklə, ölüm hədəsi ilə Ermənistan SSR ərazisindən qovulmuş 215 min azərbaycanlının 80 mininin Bakı şəhərində olmasıdır ki, onlar da bu günədək mənzillə və işlə təmin edilməmişlər.

Bütün bunlar respublikada vəziyyətin sabitliyinin pozulmasının başlıca səbəbidir. Bakıda və respublikanın rayonlarında keçirilən yığıncaqlarda, mitinqlərdə SSR İttifaqı tərəfindən müttəfiq respublikanın suveren hüquqlarını qorumaq sahəsində SSRİ Konstitusiyasının 81-ci maddəsində nəzərdə tutulan öhdəliklərin yerinə yetirilmədiyinə, respublikanın rəhbərliyinin Azərbaycan SSR-in [26-27] ərazi bütövlüyünü təmin etməyə qabil olmadığına görə hiddət ifadə edilir, respublika hökumətinin istefa verməsi tələbi irəli sürülürdü.

Belə bir vəziyyətdən istifadə edən cinayətkar ünsürlər yanvarın 13-də Bakıda fitnəkarlıqla talanlar, azğın hərəkətlər törətmişlər ki, bu da çoxlu adamın, əsasən erməni millətindən olanların qırılmasına gətirib çıxarmışdır. Azərbaycan xalqı, respublikanın zəhmətkeşləri törədilmiş cinayətləri qəzəblə pisləyir, onların təşkilatçılarını və icraçılarını ciddi cəzalandırmağı tələb edirlər.

Lakin Bakı şəhərində və ümumən respublikada yaranmış mürəkkəb vəziyyəti hakimiyyətin zorla ələ keçirilməsi cəhdi kimi qiymətləndirmək olmaz. Yuxarıda göstərilən məsələlərin vaxtında və operativ surətdə həll edilməsi əvəzinə bu iş anlaşılmaz bir tərzdə uzadılırdı ki, bu da fitnəkarlıq kimi qiymətləndirilə bilər və təbii surətdə aqibəti bəlli olmayan nəticələrə gətirib çıxara bilərdi.

Hər halda, bu, qoşunların yeridilməsi zamanı tətbiq edilmiş üsullara və operativ-taktiki hərəkətlərə əsla haqq qazandırmır.

Mahiyyətcə, tarixin sovet qoşunlarının Macarıstana və Çexoslovakiyaya müdaxiləsindən də rüsvayçı səhifələri demək olan bu qeyri-insani əməliyyata «hərbi əməliyyatlar teatrına» qabaqcadan gəlmiş SSRİ müdafiə naziri D.T. Yazov və SSRİ daxili işlər naziri V.V. Bakatin rəhbərlik etmişlər. Dinc dövrdə ehtiyatda olanların, xüsusən də Şimali Qafqazda, ermənilərin yığcam halda yaşadıqları rayonlarda səfərbərliyinin elan edilməsini təşkilatçılar, görəsən, nə ilə izah edirlər?

Qoşun hissələrinin və birləşmələrinin tanklardan, piyadaların döyüş maşınlarından və zirehli transportyorlardan, habelə parçalanan güllələr və ağırlıq mərkəzi dəyişən güllələr atmaqla avtomat silahdan istifadə etməsi beynəlxalq hüquq normalarının və sazişlərin bilavasitə pozulmasıdır. Belə güllələrin vurduğu yaraları müalicə etmək üçün müvafiq təcrübə, avadanlıq və dərmanlar lazımdır. [27-28] Lakin qanlı cinayətin əsl miqyasını dünya ictimaiyyətindən gizlətmək məqsədilə xarici

ölkələrin respublikaya lazımi tibbi yardım göstərmək sahəsindəki bütün cəhdlərinin qarşısı qətiyyətlə alınırdı.

İttifaq dövlət hakimiyyəti orqanlarının, Bakı şəhərinin dinc əhalisinə divan tutulması təşkilatçılarının və icraçılarının bu hərəkətlərini həm insan hüquqlarına dair ümumi bəyannamənin, həm də aşağıdakı SSRİ Konstitusiyasının müddəalarının və beynəlxalq hüquq aktlarının kobudcasına pozulması kimi qiymətləndirmək lazımdır:

— SSRİ Konstitusiyasının 119-cu maddəsinin 14-cü bəndi; orada deyilir ki, fövqəladə vəziyyətin tətbiq edilməsi zamanı bu məsələ müvafiq müttəfiq respublikanın ali sovetinin rəyasət heyəti ilə hökmən müzakirə edilməlidir. Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin sədrinin bəyanatından görünür ki, Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsinə Rəyasət heyəti belə bir razılıq verməmişdir;

— 1949-cu ilin Cenevrə müahidələrinə aid 1977-ci il iyunun 10-da qəbul edilmiş II əlavə protokol; həmin protokola görə, müharibə aparılmasının qaydaları Cenevrə müahidələrində və «həddən artıq xəsarət yetirən və ya ucdantutma təsir göstərən silahlar sayıla bilən konkret adi silah növlərinin tətbiqinin qadağan edilməsi və ya məhdudlaşdırılması haqqında» 1981-ci il müahidəsində nəzərdə tutulmayan bütün silahlı münaqişələrə şamil edilir.

Bu müahidələri imzalamış Sovet dövləti onlara riayət edilməsi üçün dünya ictimaiyyəti qarşısında birbaşa məsuliyyət daşıyır.

SSRİ-nin təşkil edilməsi haqqında müqaviləni və SSRİ Konstitusiyasını pozaraq SSRİ Ali Sovetinin Rəyasət heyəti Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyasının 1990-cı il 22 yanvar tarixli qərarını saya almamaqda davam edir. Bu, mövcud qanunvericiliyin kobud surətdə pozulması ilə qəbul edilmiş fərman kimi «Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında» SSRİ Ali Soveti Rəyasət heyətinin cari ilin 19 yanvar tarixli fərmanının qüvvəsinin respublikanın ərazisində dayandırılması barədə qərar və həmin vəziyyəti ləğv etmək və qoşunları çıxarmaq haqqında vəsatətdir. [28-29]

İki yüz mindən çox azərbaycanlının kütləvi surətdə qovulması nəticəsində 80-ə yaxın adamın həlak olduğu və xəbərsiz-ətərsiz itkin düşdüyü Ermənistan SSR-də olan hadisələrə ölkənin dövlət hakimiyyəti orqanlarının laqeydlik göstərdikləri bir vaxtda Azərbaycan SSR-də xüsusi idarəetmə formasının tətbiq olunması, fövqəladə vəziyyət elan edilməsi şəklində eksperimentlər aparılması respublika zəhmətkeşlərində haqlı hiddət doğurur.

Hərbi qulluqçuların ailələrinin köçürülməsi, rusdilli əhalinin nümayəndələrinin respublikadan çıxıb getməsi faktları çox böyük narahatlığa və təşvişə səbəb olur. Azərbaycan SSR Ali Sovetinin deputatları və Azərbaycan SSR-dən SSRİ xalq deputatları bu faktları Azərbaycan və rus xalqlarının mehriban qarşılıqlı münasibətlərində nifaq salmaq cəhdi kimi qiymətləndirirlər. Biz bəyan edirik ki, Azərbaycanın və Rusiyanın dostluğu və qardaşlığı, respublikanın rusdilli əhalisi ilə Azərbaycan xalqının beynəlmiləl yekdilliyi pozulmazdır və bizim bu tarixi nailiyyətimizə qəsd etməyə heç kəsin ixtiyarı yoxdur.

Yuxarıda deyilənlərin hamısı Bakı şəhərində fövqəladə vəziyyət elan edilməsi haqqında SSRİ Ali Soveti Rəyasət heyətinin 1990-cı il yanvarın 19-da qanunsuz qəbul edilmiş fərmanı əsasında Bakıya qoşun yeridilməsini, bunun nəticəsində dinc əhalinin kütləvi surətdə qırılmasını Azərbaycan xalqına qarşı cinayət adlandırmağa imkan verir...».

**(1990-cı il yanvarın 19—20-də Bakı şəhərində olmuş hadisələrin təhqiqi üzrə Azərbaycan SSR Ali Soveti komissiyasının 1990-cı il fevralın 11-də Azərbaycan Ali Soveti Rəyasət Heyətinin iclasında bəyənilmiş və o vaxtlar rəsmi mənbələrdə çap edilməmiş bəyanatından — «Kommunist»də dərc olunmaq üçün yığdırılmış, üç dəfə hərbi senzor tərəfindən çapına icazə verilməyib səhifədən çıxarılmışdır).**

Həqiqət — hər halda, ilkin həqiqət belə idi və onu dilə gətirmək heç kimdən — istər baş katib olsun, istərsə də adi qəzet müxbiri — elə bir xüsusi qəhrəmanlıq, cəsarət tələb etmirdi, sadəcə, ədəb-ərkanlı, [29-30] vicdanlı insan olmalıydın. Təəssüf ki, məhz sonuncu keyfiyyət çoxunda, ələlxüsus da baş katibdə çatışmırdı və aşağılar da ondan ibrət götürürdü.

Həmin 90-cı il fevralın 14-də Moskvada SSRİ Ali Sovetinin növbəti sessiyası açılacaq və Azərbaycanı təmsil edən bir qrup Ali Sovet üzvü (hamısı yox! hamısı yox! Çünki Bakıda axıdılmış günahsız insan qanı onların bir çoxunun vicdanına ləkə idi) həmin bəyanatı elan edib xalqın adından tələb edəcəkdilər:

«1. SSRİ Ali Soveti Rəyasət heyətinin məsələni Azərbaycan SSR Ali Sovetinin Rəyasət heyəti ilə hökmən müzakirə etmədən Bakı şəhərində fövqəladə vəziyyət elan etməklə SSRİ Konstitusiyasının 119-cu maddəsinin 14-cü bəndini kobudcasına pozması SSRİ Konstitusiyasının və müttəfiq respublikanın suverenliyinin pozulmasının qorxulu nümunəsi kimi pislənsin.

2. SSRİ Konstitusiyasını pozaraq Bakıda fövqəladə vəziyyət elan edilməsinə icazə vermiş şəxslərin şəxsi məsuliyyəti məsələsinə baxılsın.

3. Bakıya qoşunların yeridilməsinə bilavasitə rəhbərlik etmiş və bu zaman faciəli nəticələrə gətirib çıxaran, qeyri-insani, qəddar metodlardan istifadə olunmasına yol vermiş şəxslərin məsuliyyəti məsələsinə baxılsın.

4. 1990-cı il yanvarın 19—20-də Bakı şəhərində olmuş hadisələri diqqətlə təhqiq etmək üçün SSRİ Ali Sovetinin deputat komissiyası yaradılsın.

5. Azərbaycan SSR-in SSRİ Ali Soveti Rəyasət heyətinin bu il 15 yanvar tarixli fərmanında sadalanmayan şəhərlərində və rayonlarında fövqəladə vəziyyət ləğv edilsin və eyni vaxtda qoşunlar ordan çıxarılsın və respublikaya vurulmuş zərərin əvəzinin ödənilməsi haqqında ölkənin ali dövlət hakimiyyəti və idarə orqanları tərəfindən qərar qəbul edilsin».

Müzakirələr baş alıb gedəcək, xalqımıza qarşı böhtan və iftiraların həddi-hüdudu olmayacaq (hətta şəhidlər arasında qocaların, uşaqların, qızların olması qətiyyətlə inkar ediləcək, az sonra «Bakı əməliyyatı»ndakı «şüçaət»inə görə Sovet İttifaqı Marşalı rütbəsinə layiq görülmüş müdafiə naziri, bir vaxt Bakıda qulluq edərkən Azərbaycanın çörəyini yemiş Dmitri Yazov «zahiri effekt üçün» şəhid [30-31] məzarlarının çox qazıldığını və Dağıstandan pulla yiyəsiz meyitlər alınıb basdırıldığını iddia edəcək) və nəhayət, Qara şənbədən düz 43 gün sonra SSRİ Ali Sovetinin sessiyası qərar çıxaracaqdı — xalqımıza qarşı münasibətdə neçənci dəfə yenə tarazlı qərar: «Azərbaycan SSR-də və Ermənistan SSR-də vəziyyət və həmin regionda şəraiti normal hala salmaq tədbirləri haqqında». 20 yanvarda cismən əzilmiş xalqımız bu dəfə mənən təhqir ediləcək və həmin qərarda böyük faciəmiz «1990-cı ilin yanvarında baş vermiş bütün cinayət faktları və hüquqa zidd hərəkətlər» kimi təfsir olunub, bilavasitə Qara şənbənin təşkilatçılarına, konkret desək, SSR İttifaqı Prokurorluğuna, SSRİ Daxili İşlər Nazirliyinə və SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinə tapşırılacaqdı ki, Azərbaycanın hüquq mühafizə orqanları ilə birlikdə Azərbaycan SSR Ali Soveti komissiyasının çıxardığı nəticələri nəzərə alaraq, həmin «fakt»ların və «hərəkət»lərin ən qısa müddətlərdə təhqiqini təmin etsinlər və iki ay ərzində SSRİ Ali Sovetinə müvafiq məlumat təqdim etsinlər.

1990-cı il başa çatacaq, SSRİ xalq deputatlarının üçüncü və dördüncü qurultayları da keçiriləcək, amma Bakı faciəsinin səbəbləri açılmayacaq ki, açılmayacaqdı!

**YERİ GƏLMİŞKƏN:**

«Deputat (özünü təqdim etmədi): Hörmətli Nikolay Semyonoviç! Xahiş edirəm, deyin görək, 1990-cı ilin yanvarında Bakıda baş vermiş hadisələrin təhqiqi necə gedir?

N.S. Trubin: Bakı hadisələrinə dair işin təhqiqinə xitam verilmişdir, çünki hərbi qulluqçulardan kiməsə cinayət məsuliyyətinə cəlb etmək üçün əsas yoxdur. Azərbaycan prezidenti A.N. Mütəllibov yoldaşa üç-dərd həftə bundan əvvəl bu barədə məlumat göndərilmişdir».

**(Deputatların suallarına SSRİ baş prokuroru N.S. Trubinin cavablarından — «Krasnaya zvezda», 27 aprel 1991-ci il).**

Bütün bunlar sonra olacaqdı. Çox-çox sonra. hələlik isə... [31-32]

**On yeddi illik qəzetçi ömrümdə peşəmdən yana**
**qürur hissi keçirdiyim anlar az olmayıb. Yaddan**

**çıxmayanı da var, unudulanı da. Ancaq 1990-cı il yanvarın 25-də bütün varlığıma hakim kəsilmiş duyğunu ömrümün son anına qədər yaşadacağım şəksizdir — inanmıram ki, belə hissi ikinci dəfə keçirmək mümkün ola...**

## II. ...və sonra

Yanvarın 20-də mən redaksiyaya kələndə saat on olardı. Evdən isə təxminən yeddi radələrində çıxmışdım — Biləcəri yoxuşunun başından metronun elə həmin gün qeyri-iradi «Qanlı meydan» adını qazanmış stansiyasına qədərki təxminən iki kilometrlik yola üst-üstə iki saatadək vaxt getmişdi, o iki kilometrdə gördüklərim, eşitdiklərim gözlərimə və yaddaşıma əbədilik həkk olunub — istəsəm də, silə bilmərəm. Onlar barədə danışmağı da artıq hesab edirəm — onsuz da hər şey aydındır: görən görüb, bilən bilir... həmin iki saatda anbaan şüurumda qətiləşən, möhkəmlənən fikir bu idi ki, tezliklə özümü redaksiyaya çatdırmalıyam...

İlk zərbəni metro qatarında aldım. Günü bu günə qədər məşğuliyyətinin nədən ibarət olduğunu bilmədiyim, küçə və meydanlarda yaxa yırtanlardan biri kimi tanıdığım cavan oğlan dişlərini qıcırdaraq soruşdu: «İşə gedirsən? Kimə lazımdır sizin o qəzet?». O məni tanıyırdı, xasiyyətimə də az-çox bələd idi, özünə və özü kimilərinə — özləri konkret bir işin qulpundan yapışmayan, peşəsi başqalarına şəbədə qoşmaq olan, əsl mənada camaatın əsəbləri ilə oynayan, meydanda boğazına güc verməyi postunda öz işini səliqə ilə, canı-dildən görməkdən üstün tutanlara münasibətimdən də az-çox xəbərdar idi. Bunu da bilirdi ki, «o qəzet»in, yəni «Kommunist»in vicdanlı işçiləri amansız mənəvi repressiya şəraitində, baş verə biləcək faciənin qarşısını almaq üçün az iş görmürdülər. Azı on gün olardı ki, «Kommunist»də boğazdan yuxarı deyilmiş bir cümlə də dərc olunmurdu, üstəlik, iki gün idi respublikada heç bir qəzet çıxmırdı.

Ona heç nə demədim, ancaq sözlərinin deyiliş tərzi məni üşütdü. Üzümü yana çevirməli oldum. Güman ki, məni söysə də, həmin an ona cavab verməyəcəkdim.[32-33]

...Redaksiyada on-on iki adam vardı. Qəribə bir hiss bürümüşdü hamının varlığını, heç kim bir-birinin üzünə baxmaq istəmirdi — sanki hamı suçlu bir iş üstündə tutulmuşdu.

Otaqların çoxu açıq olsa da, hamının üz tutduğu qapı redaktor müavini Rəfail Nağıyevin otağının qapısı idi. Dünəndən, srağagündən «Kommunist» nəşriyyatının mətbəəsi bağlı idi, qəzetin çıxıb-çıxmayacağı barədə düşünməyə dəyməzdi. Cari işlə məşğul olmaq lazım idi. Nəydi o «cari iş»? Dərhal ağla gələn bu oldu: həmin dəqiqələrdə miqyasını təsəvvür edə bilmədiyimiz amansız zülm barədə həqiqəti bir yana çıxarmaq. hara? hara mümkünsə!

Həqiqi mənada hakimiyyətsizlik şəraiti yaranmışdı o vaxt respublikada. Və bu, kütləvi informasiya və məlumat vasitələri sahəsində də özünü göstərirdi. Ən müxtəlif səbəblər üzündən (mən həmin səbəblərin nədən ibarət olduğunu bilirəm və güman edirəm ki, indi bunları sadalamağın əhəmiyyəti yoxdur — o mənada ki, vəziyyəti dəyişdirmir) yanvarın 20-də Azərinformun direktoru, Dövlətteleradionun sədri, «Kommunist»in, «Vışka»nın və «Sovet kəndi»nin (indiki «Bərəkət»in) redaktorları vəzifə başında deyildilər. Təkcə «Bakinski raboçi»nin qanına, iliyinə qədər qəzetçi olan redaktoru Gennadi Qluşkov yerindəydi, ondan da aldığımız cavab bu oldu: «hesab edin ki, bu gündən redaktor deyiləm. Etiraz əlaməti olaraq...». (Üstəlik, sonradan məlum olduğuna görə, həmin gün redaksiyada ondan və informasiya şöbəsinin müdiri, "əməkdar jurnalist Aqşin Kazımzadədən savayı heç kim yox imiş). Qluşkov bundan 5—6 ay əvvəl dərc etdirdiyi məqaləsi, sonra isə Azərbaycan SSR Ali Sovetinin sessiyasında prinsipial çıxışı ilə sübut etmişdi ki, Azərbaycanın çörəyini yeyənlərin heç də hamısı nankor olmur. Ona görə indiki sözləri də çox təbii səsləndi: «Nə etmək istəyirsinizsə, mən də sizinləyəm».

Birinci işimiz. Azərbaycan Jurnalistlər İttifaqı idarə heyətinin sədri Hacı Hacıyevin iştirakı ilə «Dünya xalqlarına müraciət»in mətnini tərtib etdik:

«Azərbaycanın paytaxtı qana qəltan edilib. Moskvanın göstərişi ilə göndərilmiş tanklar adamları amansızcasına basıb keçmişlər, Bakının küçələri azərbaycanlıların meyitləri ilə doludur. [33-34]

Azvrbayçan jurnalistləri dinc əhaliyə qarşı vəhşi terrora hiddətli etirazlarını bildirir və bütün dünya xalqlarını öz azadlığı, istiqlaliyyəti, vətəninin ərazi bütövlüyü uğrunda çarpışan Azərbaycan xalqı ilə həmrəy olmağa çağırırlar».

Azərinform direktorunun müavini — «səksəninci illərin Bakısına əllinci illərin komsomolçusu ağlı ilə qayıtmış» (Q. Yaşar) Vəzirovun curlarından, başına ağıl qoyanlardan biri olan Saveli Perets («şef» Azərbaycanda «işini görüb» Moskvaya qayıtdıqdan az sonra İsrailə köçüb getdi və dərhal da xalqımıza qarşı ermənipərəst yazılarla çıxış etməyə başladı — Ş. Y.) mətni SİTA-ya verməyə boyun oldu. Lakin biz başa düşürdük ki, hələ bir gün əvvəl (1) M. S. Qorbaçovun Bakıya qoşun yeritməkdən savayı özgə əlacı olmadığı (?) barədə xarici rəylər yayan SİTA bu müraciəti, sadəcə olaraq, qəbul etməyəcək və heç bir informasiya orqanına verməyəcək. Bəs nə etməli? Gərək ki, Zülfüqar Rüfətoğlu təklif verdi: bəlkə xarici işlər nazirliyi vasitəsilə yayaq?!

Təklif ağıla batdı. Hökumət telefonu ilə naziri axtarmağa başladıq. Nəhayət, nazirliyin hansısa bir əməkdaşı ilə razılaşdıra bildik: qoy İran və İraq konsulluqlarından nümayəndə çağırsınlar, müraciəti rəsmi şəkildə təqdim edək. Bəlkə onların vasitəsilə sözümüz SSRİ sərhədini aşa bildi.

Zülfüqar və daha bir nəfər nazirliyə yollandılar. Soraq gəldi ki, MK-nın qabağında mitinq olacaq. Müraciətin bir nüsxəsini Tahir Rüstəmova verib ora göndərdik — qoy oxusun, qoy xalq bilsin ki, Azərbaycan jurnalistləri, hər halda, «Kommunist»in işçiləri, təsəvvür olunduğu kimi, müti qul deyillər.

Bütün bunlar dəryada damla idi. Daha bir variant ağıla gəldi: SSRİ-nin hansı şəhərində kimin tanışı varsa, zəng vuraq, həqiqəti deyək. İndi sovet mətbuatının, Mərkəzi televiziya və radionun həmin axşam M. S. Qorbaçovun deyəcəyi sözlərdən savayı bir söz deməyəcəyi yəqin idi. Burasını da bilirdik ki, dediklərimizi çap etməyəcəklər. hər halda, ürəyimizi boşaldırdıq... [34-35]

...Bu sətirləri yazdığım vaxtdan sonra nə qədər yaşayacağımı bilmirəm, ancaq onu dəqiq bilirəm ki, ömrümün son dəqiqəsinə qədər «20 yanvar» ifadəsindən gözlərim qaralacaq və həmin şənbə günü təxminən dörd saat iştirakçısı olduğum bir səhnə dönə-dönə gözlərim önündə canlanacaq: yaş fərqi 30—35 il olan kişilər sonsuz intizarla telefonun dillənməyini gözləyirlər. Zəng çalınan kimi aparatın üstünə cumur, ehtirasla dəstəyi qamarlayıb qulaqlarına sıxır və ucadan, vahiməli əks-səda verən bir səslə deyirlər: «Alo, vı slışite?. U nas po radio zvuçit traurnaya muzıka...». Sonra qəhər qurğuşun kimi boğazlarına çökür və bir müddət nədən, necə söz açmağı sanki unudurlar. Nəhayət, özlərini ələ alaraq telefon xəttinin o başındakı adamların (əsasən SSRİ-nin müxtəlif teleqraf agentlikləri başçılarının və ya hətta onların ailə üzvlərinin, Moskvada işləyən əcnəbi jurnalistlərin) səbrinin tükənəcəyini başa düşür, dərhal ürəklərinin üstünə ağırdan da ağır bir daş basıb həqiqət barədə onlara ün yetirirlər...

Özbəkistanın «Yoş leninçi» qəzetinin redaktoru Jabbor Razzakovun telefonu vardı məndə. Daşkənd birinci cavab verdi. Jabbor deyildi, müavini idi. Yadımda qalan budur: ondan təkidlə xahiş edirdim ki, müsibətimizi təcili surətdə SSRİ xalq deputatı Muxtar Şaxanova çatdırsın — Ali Sovetin sessiyalarının translyasiyalarından onu mübariz, döyüşkən deputat kimi tanıyırdım... Səsimin boğulduğunu görən Rəfail müəllim dəstəyi əlimdən aldı... (Qəribə idi, mən israrla Şaxanov, Muxtar deyirdim, telefonun o başındakı müsahibim də təsdiqləyirdi. Üstündən beşcə gün keçəndən sonra, yanvarın 25-də axşam «Kommunist» nəşriyyatının mətbəəsində Oljas Süleymenovla söhbət zamanı birdən-birə başa düşdüm ki, ağıllı-başlı səhv salmışam: Daşkənd universitetinin rektoru Erkin Yusupovu nəzərdə tutub... Qazaxıstan Yazıçılar İttifaqı idarə heyətinin katibi Muxtar Şaxanovun adını çəkmişəm, müsahibim də bunu üzə vurmayıb... (Bunlar təfsilatdır, oxucu üçün bəlkə də əhəmiyyəti yoxdur, ancaq indi fikirləşirəm ki, həmin dəqiqə hansı vəziyyətdə olduğumuzu göstərmək üçün lazımdır).

Redaksiyanın təzə əməkdaşı Sabir İsmayılov qonşu otaqdan Frunzeyə (indiki Bişkekə) zəng vurmuşdu — orada tələbə yoldaşı olurdu. Redaktor müavini Məzahir Süleymanzadə Gürcüstan qəzetlərindən birinə xəbər yetirməklə məşğul idi... [35-36]

Kimsə Azərinformdan xidməti telefon məlumat kitabçası gətirdi. Bu hesaba SSRİ-nin, demək olar, bütün informasiya agentliklərinə dərdimizi yetirə bildik. Agentliyin direktoru olmayanda müavininə, xidmət telefonları bağlı olanda isə evlərinə zəng etməkdən savayı əlacımız qalmırdı. Estoniya Teleqraf Agentliyi direktorunun arvadının ürəkdən, yana-yana dediyi «Derjites, rebyata, derjites» sözləri, R. Nağıyevin isə «Bu, Qorbaçovun Pribaltikada keçirmək istədiyi əməliyyatın baş məşqidir» — kəlmələri indi də qulaqlarımda səslənir. (Dünyanın işinə bax: təxminən bir il sonra, mən bu hisslər barədə indi müstəqil nəşr olan «Səhər» qəzeti üçün qeydlərimi hazırladığım vaxt Mərkəzi televiziyanın diktoru Vilnüsdə «qara yanvar» — qoşunun «cavab atəşi açmağa məcbur olması» barədə SİTA-nın məlumatını oxuyurdu...).

Azərinformdan Elman Cəfərli gəldi — əlində teletayp lentləri vardı. «SİTA-dan gələn kanal bağlıdır, — dedi, — Moskvadan heç nə almırıq. Bunlar bizdən gedən materialların surətidir».

Birincisi SİTA-nın direktoru L. P. Kravçenkonun (sonralar—91-ci ilin avqustuna qədər—SSRİ Dövlətteleradiosunun sədri işlədi, 90-cı ilin yayında Azərbaycandan - Sov.İKP XXVIII qurultayına nümayəndə seçildi...) adına ünvanlanmış xidməti məktub idi, S. Perets yazmışdı. Vəziyyətin obyektiv təsviri və şərhi olmasa da, dövrün ruhunu dəqiq əks etdirdiyi üçün onun mətnini bütünlüklə verməyi lazım bilirəm:

«Hörmətli Leonid Petroviç! Bakıda gecə çox ağır olmuşdur. Gecəyarısı şəhərə qoşun yeridilmişdir. Tanklar şəhərin əsas magistrallarında avtobuslardan, trolleybuslardan, yük avtomobillərindən qurulmuş qalaqları süpürüb atmışdır. Müqavimət göstərənlər, yaxud sadəcə, yolda dayananlar da süpürülüb atılmışdır. Bakıda qoşun hissələrinin yerləşdiyi rayonda — Salyan kazarmaları deyilən yerdə bir neçə saat vuruşma getmişdir. Nəticədə bu magistrallar və bu rayon həqiqi mənada qana boyanmışdır. Aeroporta gedən yol meyitlə doludur. Bakı Şəhər Soveti İcraiyyə Komitəsindən alınan məlumata görə, onlarca adam öldürülmüş, yüzlərlə yaralanmışdır. Müəssisələr, [36-37] şəhərin xidmət bölmələri, mətbəələr işləmir. Qəzetlər yenə çıxmır. Dünən, güman edildiyinə görə, hərbçilər tərəfindən respublika televiziyası və radiosunun yardımçı enerji stansiyası partladılmışdır. Televiziya və radio işləmir.

Azərinformun hərbi - hüquq şöbəsinin müdiri Hüseynov (Əsildar Hüseynov — Ş. Y.) gecə Salyan kazarmaları rayonunda olmuş və qanlı qırğını öz gözləri ilə görmüşdür.

Radio-translyasiya şəbəkəsi ilə müntəzəm olaraq Vladimir Serkeyeviç Dubinyakın müraciəti verilir. Müraciətdə deyilir ki, qoşunlar mövcud quruluşu devirməyə çağıran Azərbaycan Xalq Cəbhəsinin ultimatumuna cavab olaraq yeridilmişdir. Bakılılara təklif olunur ki, küçələrə çıxmasınlar, təmkinlərini qoruyub saxlasınlar.

Öz növbəsində Azərbaycan Xalq Cəbhəsi öz kanalları vasitəsi ilə bəyanat verərək ona qarşı irəli sürülən ittihamları rədd etmiş, xalqı işğalçı qoşunlara müqavimət göstərməyə çağırmışdır.

Azərinformdan yalnız sizinlə əlaqə saxlayıram. MK-dan heç bir göstəriş yoxdur. Bir təhər hərbi komendanta zəng vurub xahiş etdim ki, heç olmazsa, müraciətini bizə göndərsin və minimum informasiya versin. Təəssüf ki, iş qeyri-müəyyən vədlərdən o yana getmir. SİTA-nın müxbirləri Fomin və Budris bizdədirlər. Demidov isə hərbçilərin yanındadır. İndinin özündə, saat 10-da da (Moskva vaxtı ilə) agentliyin binası yaxınlığında atəş səsləri eşidilir.

Əlavə məlumat alsam, sizə xəbər edəcəyəm. ...Vəziyyət dəyişməsə, əməkdaşların təhlükəsizliyi naminə, güman ki, saat 13—14 radələrində rabitəni kəsəcəyəm».

İkinci lent Azərinformun rəsmi materialı kimi SİTA-ya verilmiş Azərbaycan Jurnalistlər İttifaqının «Dünya xalqlarına müraciət»i idi. Həmin lentin sonunda SİTA buraxıcısının nəzərinə belə bir qeyd də vardı: «Bakı Şəhər İcraiyyə Komitəsi sədrinin ilkin məlumatına görə, 55 nəfər öldürülmüş, 180 nəfər yaralanmışdır».

Redaksiyada kortəbii surətdə 10—15 nəfərlik kiçik qrup yaranmışdı. Bu qrup məlumat toplamaq, vəziyyəti öyrənmək, həqiqəti xəbər vermək üçün ağıla gələn hər vasitəyə əl atırdı. Əsas iş [37-38] telefonla — hökumət telefonları ilə görülürdü. R. Nağıyevlə M. Süleymanzadənin otaqları

özünəməxsus qərargaha dönmüşdü: bütün fəaliyyət planı burada cızılırdı, məlumat, göstəriş buradan verilirdi, əməkdaşlar buraya toplaşırdı. İki qızımız, iki fədakar insan — stenoqrafçı Nazilə ilə makinaçı Pərinaz ailələrini, ailə qayğılarını, ailə üzvlərinin təhlükəsizliyini unudub bizimlə həmdərd olmuşdular, göz yaşları axa-axa nəyisə makinada çap edirdilər, kimisə sakitləşdirir, kiməsə təsəlli verirdilər, telefonda asılı qalmış bizləri, heç olmazsa, bir stəkan çay içməyə, yavan çörəkdən bir loxma kəsməyə məcbur edirdilər. hadisələrin bütün sonrakı gedişi həmin günlərdə bu iki qadının «Kommunist»in 20 —30 illik stajı olan sıravi və vəzifəli əməkdaşlarının bir çoxundan mərd, dəyanətli, sözübütöv, qeyrətli olduğunu sübut etdi.

(Deyirlər, ölüm yatağında ötüb-keçənlər kino lenti kimi göz önündən keçir: yaxşılar da xatırlanır, bədxahlar da. Yaxşılar cərgəsində Nazilə ilə Pərinazı anacağıma şəkk-şübhəm yoxdur!).

...Tədricən rəsmi materiallar gəlirdi. Azərinformun ictimai-siyasi xəbərlər baş redaksiyasının baş redaktoru Azər Ələsgərov Şeyx həzrətlərinin bomba təsiri bağışlayan müraciətinin mətnini və hərbi komendantın 1 nömrəli əmrini gətirdi: Hər ikisi rus dilində idi, qəzetdə veriləcəkdisə, tərcümə olunmalı idi. Elman qəti imtina etdi və həmin an üçün çox təbii bir tərzdə dedi: «Ümumiyyətlə, mən bundan sonra rus dilindən heç nə tərcümə etməyəcəyəm». (E. Cəfərli Azərinformun ştatlı tərcüməçisi idi, çörəyi SİTA və Azərinform materiallarının tərcüməsindən çıxırdı və təbii ki, sözünün üstündə dura bilməzdi. İlk günlərin sarsıntısı keçəndən sonra yenə sevimli peşəsi ilə məşğul olmağa başladı — Elman respublikada, ümumiyyətlə, ictimai-siyasi ədəbiyyatın yaxşı tərcüməçilərindəndir). Komendantın əmrini Azər tərcümə etməyə razı oldu, şeyxülislamın məktubunu isə redaksiyanın beynəlxalq həyat və tərcümə şöbəsinin müdiri Akif Qəhrəmanova verdik — mülahizə belə idi: kamil tərcüməçidir, üstəlik, «İslam» və «Şəriət» kitablarını tərcümə edib, necə deyərlər, şeyxin dilini yaxşı bilir...

S. Perets rabitəni saat 13—14-də kəsəcəyinə söz versə də, Azərinformdan savayı daha bir informasiya orqanında da iş getdiyini görüb fikrindən daşındı. Günün ikinci yarısında onun L. P. Kravçenkoya ikinci məlumat məktubunun mətnini gətirdilər:[38-39]

«Hörmətli Leonid Petroviç!

Şəhərdə vəziyyət son dərəcə gərgin olaraq qalır. Qüvvələrdə qütbləşmə baş vermişdir — Azərbaycan KP MK-nın binası qarşısında 50 minədək adam toplaşmışdır. Küçələrdə duran tanklarla onların yolunu kəsmişlər, əsgərlər tam döyüş vəziyyətini almışlar. Adamların başqa bir dəstəsi Lenin adına meydandadır. Burada artıq 250—300 min adam yığışıb. Onlara heç kim mane olmur. Meydanda və MK binası qarşısında toplaşmış adamların başı üzərində qara matəm bayraqları dalğalanır.

Tələf olanların kədərli siyahısı böyüyür. «Təcili yardım» xəstəxanası həkimlərinin məlumatına görə, artıq 640 nəfər yaralanan və ölən vardır. MK binasının yaxınlığında olan fotoxronikadan indicə bizə zəng vurdular: orada adamlara güllə atırlar.

Elan edilmişdir ki, sabah (əslində isə yanvarın 22-də — Ş. Y.) saat 12-də Lenin adına meydanda dəfn mərasimi olacaqdır.

Bizdə olan məlumata görə, respublika hökuməti üç günlük matəm elan etmək niyyətindədir.

Sizin müxbirlər Fomin və Budrisə kömək etmək istədik, onları respublika Daxili İşlər Nazirliyinə göndərdik, lakin qəbul etməyib geri qaytardılar.

Nə MK-nın mətbuat mərkəzi, nə Daxili İşlər Nazirliyinin, nə də hərbi komendantın mətbuat mərkəzi işləyir. Hərbi komendantdan böyük əziyyətlə bakılılara müraciəti və 1 nömrəli əmri ala bildim. Onları yaymağa hazırıq, lakin əfsus ki, harayasa vermək imkanı yoxdur — SİTA-nın rabitə kanalından savayı bütün rabitə kanalları bağlıdır.

Adamların təhlükəsizliyi məqsədilə rabitəni kəsirəm».

Əlimiz daha heç yana, heç nəyə çatmır. Başlıcası budur ki, mətbəə işləmir və qəzet çıxmır. Biz — həmin on-on beş nəfər isə çıxıb gedə bilmirik. Nəyi gəzləyirik? Bilmirik. Nisbətən uzaqda yaşayan və metro ilə gedə bilənləri, o cümlədən anadan, bacıdan artıq bizə qayğıkeşlik göstərən qızlarımızı evlərinə göndəririk.[39-40]

Təxminən axşam 9-da biz üçümüz — R. Nağıyev, M. Süleymanzadə və mən sürücümüz Əzim kişi ilə redaksiyanı tərk edirik. Sabah bazardır, iş günü deyil — qəzet çıxmır, bazar ertəsi redaksiyada görüşüb hər şeyi qətiləşdirməliyik; bundan sonra yaşayaqmı? Yaşayacağıqsa, necə yaşamalıyıq, necə işləməliyik? Ən qəribəsi isə budur ki, qəzetin çıxmamasına görə dəli olmuşuq, eyni zamanda BÜTÜN BUNLARDAN SONRA «Kommunist» adlı qəzeti buraxa biləcəyimizi də ağlımıza gətirmirik. Yolda fikrimiz bir qədər də durulur: «SƏHƏR»i buraxmalıyıq. Əgər buraxa bilsək!...

...Bazar ertəsi ayaqüstü, dəhlizdə keçən yığıncağımızın son sözü bu oldu: «Bu günə qədər nə etmişiksə, necə yaşamışıqsa, bunların hamısı qalır 1990-cı il yanvarın 20-dən o tayda. İndən belə vicdanımızın əleyhinə getməyə, ürəyimizin hökm etmədiyi kimi yazmağa haqqımız yoxdur». (Tarix üçün Nazilə həmin yığıncağın stenoqramını apardı və o vaxt heç kimin ağlına gəlmirdi ki, sədrin və katibin imzalamadığı bu protokol cəmi on gündən sonra nə qədər alverçi niyyətlərdən ötrü «sanballı dəlil» olacaq, yığıncaqda «Bizimlə getməyənləri fərari adlandırmayacağıq» — deyənin özü şərəfsizcəsinə böhtan, iftira hədəfinə götürüləcək. Bunlar sonra olacaqdı. hələlik isə...).

Yığıncaqdaca R. Nağıyev qəti fikrimizi bildirdi: «Kommunist»i buraxmaqdan söhbət gedə bilməz, ona görə «Səhər»i hazırlayacağıq. Dəfn mərasimini xüsusi qrup işıqlandıracaq — rəhbəri Vaqif Bəhmənlidir. İkinci qrup — redaksiyada qalanlar respublikanın müxtəlif yerlərindən materiallar hazırlayacaq. Yazılanların ümumi redaktorluğu Məzahir Süleymanzadəyə həvalə olunur. R. Nağıyev digər qəzetlərin redaktorları ilə əlaqədə hərbi senzordan qəzetin çapına icazə alacaq, materialları senzordan keçirəcək və ümumi rəhbərliyi aparacaq. Texniki heyətlə iş—makinaçıların və sürücülərin işinin təşkili, fotomaterialların toplanması, mətbəədə növbətçiliyin təşkili və əməkdaşlar üçün komendantlıqdan buraxılış vərəqələrinin alınması, nömrənin tərtibi və sair işlər məsul katib kimi mənə tapşırılır.

Yığıncaqdan birbaşa hərə aldığı tapşırığın ardınca yollanır.[40-41]

Qızğın iş gedir. Materiallar üst-üstə qalanır. Azərbaycan SSR Ali Sovetinin dünən, yanvarın 21 - də axşam başlanan fövqəladə sessiyası yanvarın 22-də səhərə yaxın işini başa çatdırıb — bu barədə xəbərimiz var; bir qayda olaraq, rəsmi materiallar teletaypla, Azərinform vasitəsilə daxil olur, ancaq indi sessiyadan bir xətt də material almamışıq. Telefon zənglərimiz heç yana çatmır — nəinki şəhər, bütün Azərbaycan matəm içindədir. Bu yandan isə SİTA ən müxtəlif materiallar verir — Qorbaçovun Mərkəzi televiziya ilə çıxışından tutmuş, sərhədyanı rayonlardan qərəzli reportajlara qədər. Hər biri ki az qala zərrəbinlə, dönə-dönə oxuyuruq — hamısında bizi günahkar çıxarırlar, amansız kütləvi qırğına, qoşunların Bakıya yeridilməsinə, Bakıda fövqəladə vəziyyətin elan edilməsinə hər vasitə ilə haqq qazandırırlar. Məsələn, «İzvestiya» müxbirləri V. Litovkin və S. Mostovşikov redaksiyadan yüzcə addım aralıdan — 26 Bakı komissarı Rayon Partiya Komitəsi binasının qarşısından gecə reportajı veriblər. SİTA xətti ilə yayılan həmin cızmaqarada adı, milliyyəti bilinməyən qoca kaftar əsgərlərə dua-səna edir ki, nə yaxşı özlərini yetiriblər, yoxsa bu Azərbaycan «bolşevik»ləri xalqa göz verib işıq vermirlər. Qorbaçov deyir ki, «Sovet Ordusunun və daxili qoşunların əsgərləri və zabitləri SSRİ Konstitusiyasının və qanunun müdafiəsi sahəsində öz borclarını yerinə yetirirlər» və s. Rusdilli xalqlar əleyhinə psixozu dolayısı şiddətləndirən yazılar da gözə dəyir. Hamısının da üstündə danışıqsız icra edilməsi tələb olunan qrif var: «Nömrəyə». Verməsən, sabah haqq-hesab tələb edəcəklər: niyə? nə üçün? kimin mənafeyi naminə? və s. (Yeri gəlmişkən, sonralar — dəqiqliyinə qəlbən inanmadığımız məcburi materialları verməkdən müxtəlif bəhanələrlə boyun qaçırdığımız vaxtlarda yuxarı dairələrdə hətta belə bir «xoruz» buraxmışdılar: guya redaksiyalarda «xalq cəbhəsinin ekstremistləri yuva salmışlar» və xalqı konstitusiyaya zidd hərəkətlərə təhrik edirlər...).

Heç nəyə baxmadan, ciddi seçmə gedir: redaktor əvəzi R. Nağıyev rəsmi kanallarla verilmiş hər materialı dönə-dönə oxuyur və çoxunu qətiyyətlə kənara tullayıb, «Qətiyyən yaramaz!»— deyir.[41-42]

Qaydaya görə, saat 12-dək cari nömrə üçün müəyyən qədər materialı yığılmaqdan ötrü mətbəəyə göndərməliyik. Mətbəə - isə işləmir. Xəbər çıxır ki, Mətbuat prospektindəki redaksiyaların başçıları «Kommunist» nəşriyyatı direktorunun yanına yığışmışlar — mətbəə

fəhlələri ilə işə başlamaq barədə danışıqlar gedir. Bizim mövqeyimiz belədir: bir halda ki, televiziya işləmir, radio hərbçilərin əlindədir, radio jurnalistləri etiraz əlaməti olaraq işə çıxmırlar, komendantın əmrlərini də oxumağa diktor tapılmır və bunu hərbçilərin özləri edirlər—qəzetlər çıxmalıdır; xalqa məlumat vermək, özümüzü düşdüyümüz informasiya blokadasından çıxarmaq üçün, necə olacağını bilmədiyimiz sabaha və sabahkı nəsillərə bugünkü böyük faciəmizdən yazılı məlumat vermək üçün qəzetlər çıxmalıdır.

R. Nağıyev nəşriyyata yollanır. Çox keç qayıdır — təxminən saat 5 radələrində. O vaxta qədər bizdə əsas materiallar, nömrənin cizgiləri hazırdır. Fikir ayrılığı yoxdur: birinci səhifəyə iri şəkil veririk — təbii ki, dəfn mərasimindən olacaq. «Səhər»in başlığı dərd sütunluqdur, səhifədə isə beş sütun var. Aydın məsələdir: həmin «artıq» sütunda nömrənin məzmununu açan cümlə verməliyik. Cümlə hazırdır — mən göz yaşlarımı zorla boğa-boğa Pərinaza diqtə edirəm: «Əzəli və əbədi məskənimiz — Azərbaycanın azadlığı və istiqlaliyyəti uğrunda həlak olmuş günahsız Vətən övladlarının xatirəsinə həsr edilir». Rəfail müəllim redaktor uzaqgörənliyi ilə mətndə düzəlişlər aparır: «Azərbaycanın azadlığı və istiqlaliyyəti uğrunda» ifadəsini «Azərbaycanın tam suverenliyi və ərazi bütövlüyü uğrunda» sözləri ilə, «həlak olmuş» kəlməsini «şəhid olmuş» ifadəsi ilə əvəz edir. Hamılıqla qəbul edirik və həmin an ağlımıza da gəlmir ki, şənbə gecəsi qurbanlarını ilk dəfə biz «şəhid» adlandırırıq.

Şəhidlərin dəfn mərasimindən reportaj hazırdır. Hidayət Elvüsal, rəsmən məzuniyyətdə olan Rusvat Bayramov, Bəxtiyar Sadıqov, Tahir Rüstəmov, Araz Qurbanov, Dilman Musayev və Zülfüqar Rüfətoğlu onu adət etmədiyimiz bir şəkildə hazırlayıblar: hökumət evinin qarşısındakı meydandan Dağüstü parka qədər qəm karvanının keçdiyi yol boyunca hərəsi bir nöqtədə dayanmış, həmin nöqtədəki əhval-ruhiyyəni qələmə almışdır. Redaksiyada oturub ağır dərdi siqaret tüstüsüylə bol-bol ciyərlərinə, ürəyinə çəkən Vaqif Bəhmənli isə mahir bənna kimi daşı daş üstünə qoyub əzəmətli qala divarı ucaltmışdır.[42-43]

«Günahsız qana bələnmiş, taleyi zülm və zülmkarlar əlində oyuncağa çevrilmiş xalqımızın dərdini sözə çevirmək ölmək qədər çətindir. Azərbaycan anaları qara bağlamışlar! Üç gündür Bakının göz yaşları qurumur. haqqa üz tutduğumuz yerdə nahaq qana düşmüşük» — reportaj belə başlanır və bu sözlər Vaqifin qələmindən süzülüb.

«O gecə bütün Azərbaycan xalqı minillik qəhrəmanlıq, yenilməzlik tarixini təkrar edirdi. Qanlı tarix təkrar olunurdu. Xalq qurban verə-verə oyanırdı, ayağa qalxırdı» — bu da onun sözləridir. Bu da: «Göz yaşlarımız dünyanın yanağını yandırır, hayqırtımız məmləkətlərə çatır. Dünya bilməlidir ki, nər oğullar nələrə görə sinələrini qırmızı gülləyə verdilər. Dünyanı Allah yaradıb. Allah haqqın tərəfindədir. Dünya haqqın səsindən diksinər yəqin. Diksinər, nahaq qan salanları lənətləyər, inşallah!». (Qələminin şəhdi-şəkərindən bal daman qardaşım, cızdağımızı çıxaran bu sətirləri isti-isti, necə deyərlər, mürəkkəbi qurumamış halda oxuduğumuz vaxt biz nə qədər də sadəlövh olmuşuq! Dünya nəinki diksindi, heç tükü də tərpənmədi. Nəinki nahaq qan salanları lənətlədi, əksinə, xalqımıza ölüm hökmünü imzalayana üstündən on ay keçəndən sonra Nobel sülh mükafatını verdi. Həftələr, aylar ötəndən sonra da «O reportajı kim yazmışdı?» — sualına məndən «Biz hamımız!» — cavabını alıb və həmin cavaba inanmayanlara, elə mənim özümə də bir ananın öz madar övladının tabutu başında çəkdiyi ağı təsiri bağışlayan həmin reportajın sonuncu abzasındakı «Qoy dünya görsün ki, bizim əlimizdəki güllə deyil, güldür» — cümləsinin müəllifi Məzahir də yəqin həmin sadəlövh ümidlə bu kəlmələri yazmışdı və güman etməmişdi ki, haqq divanında Allahın da üz döndərdiyi yeganə xalq bizik!).

...Reportaj hazır idi və Məzahir yazı redaktorunun adətən belə hallarda keçirdiyi sevinc hissini heç cür gizlədə bilmirdi — hamının ünvanına bircə kəlmə işlədirdi: «Afərin! Əla yazıblar...».

Reportaj əla idi, özünə layiq başlığı da olmalı idi. Başlıq isə yox idi. Bədahətən dedim: «Vətən bu gün ağı deyir...». Otaqda olanların heç birinin cınqırı da çıxmadı — Məzahir tələsik qələmlə reportajın sərlövhəsini yazıb materialı mənə uzatdı: mətbəəyə göndərmək olardı (mən sərlövhənin [43-44] həqiqətən də uğurlu olduğunu sonra başa düşdüm — G. Qluşkov onu «Bakinski raboçi»nin matəm nömrəsinə ümumi başlıq vermək üçün bizdən icazə istəyəndə. Peşəkar qəzetçilər

təsdiqləyərlər: yazı sərlövhəsinin qəzet «papağı»na, özü də özgə dildə çıxan qəzetin «papağı»-na çevrilməsi faktına nadir hallarda təsadüf edilir...).

...Komendantlığın Nəsimi rayon sahəsindən üçüncü dəfə, səkkizin yarısında kor-peşman qayıtdım. Gecə işi üçün buraxılış vərəqəsi vermədilər bizə. Orada qarşılaşdığım yekəpər bir podpolkovnikin sözləri indi də qulaqlarımda səslənir: «Hansı qəzetdir o? Milli dildə çıxan qəzet? Lazım deyil sənin o qəzetin heç kimə! Çıxırsa, qoy «Vışka» çıxsın, «Bakinski raboçi» çıxsın...». Və bir də etirazıma cavab: «İndi səni otuz sutkalığa qoduqluğa atarıq, onda bilərsən ki, sovet zabiti ilə ağızlaşmaq nə deməkdir!». Onsuz da bilirdim ki, sovet zabiti kimdir və onunla ağız-ağıza vermək nə deməkdir: gündüz ana torpağa tapşırdığımız şəhidlərin al qanını səkilərdən, yollardan hələ yumamışdılar...

Əgər səhərə qəzet buraxacaqdıqsa (buna isə qəti şübhəm yoxdu), iş işdən keçmişdi — çox gec idi və adi iş normalarına, qaydalarına görə indi bu vaxt səhifələrin dördü də bərkidilməli idi. halbuki bizdə indi «xammal»dan başqa heç nə yox idi...

...Kiçik bir qrup qalmışdı redaksiyada: Nazilə, Pərinaz, Zülfüqar, Hidayət, Rusvat, Dilman, Vaqif, Araz, Məzahir, Sabir və mən. Rəfail müəllimi gözləyirdik. Əvəzində E.M. Qafarovanın köməkçisi Balaş Abbaszadə gəlib çıxdı — qoltuğunda bir yığın material vardı. Elmira xanımın 20 yanvar tarixli bəyanatının mətni, Azərbaycan SSR Ali Soveti sessiyasının gedişi barədə rəsmi məlumat, sessiyanın materialları: «Bakı şəhərində fövqəladə vəziyyətin ləğv edilməsi haqqında» qərar, «SSRİ Ali Sovetinə, müttəfiq respublikaların ali sovetlərinə, Sovet İttifaqının xalqlarına, bütün dünyanın parlamentlərinə, Birləşmiş Millətlər Təşkilatına müraciət»... Gözləri sevincdən yanır: materialları çatdırdığına, bizi redaksiyada tuta bildiyinə görə... O, E.M. Qafarovanın bəyanatının radio ilə efirə necə verildiyindən və bunun hərbi senzor üçün ağır nəticələrindən, sessiyanın gedişindən, bizim üçün materialları necə əldə etməsindən vəcdlə danışır. Bizimsə gözlərimizdə öləziməkdə olan ümidin qığılcımlarından başqa heç nə yoxdur: fəhmlə anlayırıq ki, bundan belə qəzet buraxmaq mümkün olmayacaq...[44-45]

Səhərdən bəri ağır sarsıntı içərisində, aç-susuz, ayaq üstə olan, səhhətindən şikayətlənən Rəfail müəllimin gəlişi o qığılcımların üstünə buz kimi su çiləyir: mətbəə bağlıdır, fəhlələr tətil edirlər, üstəlik, hərbi senzor BİZİM BURAXMAQ İSTƏDİYİMİZ qəzetin çıxmasına heç cür razı olmur... Şübhələrimizi tamam-kamal dağıtmaq üçün o, stolun üstünə makinada rus dilində yazılmış, imzalı-möhürlü bir vərəq qoyur: «Kommunist»in redaktor müavini R.M. Nağıyev, «Bakinski raboçi»nin redaktoru G.Q. Qluşkov və «Vışka»nın redaktor müavini O.M. Mirzəyev Bakıda fövqəladə vəziyyətin tətbiq olunmasına etiraz əlaməti kimi, redaktə etdikləri qəzetlərin buraxılışından qeyri-müəyyən müddətə imtina edirlər. Rəsmi bəyanatdır, dörd nüsxədən ibarət çap edilib, imzalarla və möhürlə təsdiqlənib, bir nüsxəsi hərbi komendantlığa təqdim olunub. Vəssalam. Redaksiyanın qapısını surğuclayıb, möhürləyib getmək olar. Deməli, bizə xalqımızın dərdindən danışmağı da, özümüzə ağı deməyimizi də qadağan edirlər. Neynək? Süleymana qalmayan dünya...

(Buradaca həm gülüş, həm də təəssüf doğuran bir məsələni qeyd etməliyəm. Qara yanvarda informasiya blokadasından çıxmaq üçün göstərdiyimiz cəhdlər barədə şəhidlərin ili ərəfəsində «Səhər» qəzetində dərc etdirdiyim qeydləri çapa hazırlayanda bu etiraz bəyanatı ilə bağlı faktı dəqiqləşdirmək üçün işin içində olan həmkarlarımla fikir mübadiləsi elədim. Qeydlərimin mötəbər alınmasını ürəkdən arzu edənlər bir ağızdan məsləhət gördülər ki, yazıda Osman Mirzəyevin adını çəkməyim — hər necə olsa, rəsmi şəxsdir, Prezident Aparatının şöbə müdiridir və Qara yanvarda onun da belə «özfəaliyyət»lə məşğul olması faktı ona xeyir gətirməz. Könülsüz məsləhətə qulaq asdım. «Bu həmin «Səhər»dir ki...» adlı qeydlərim çıxandan sonra Osman müəllim zəng vurdu, yazının Prezident Aparatında da rəğbətlə qarşılandığını bildirdi, sözarası gileyini çatdırdı: «Bəs mənim adımı niyə çəkməmisən?». Qaş qayırdığım yerdə, necə deyərlər, göz çıxardığımı başa düşüb üzrxahlıq elədim... Səhvimi indi düzəldirəm...). [45-46]

...Artıq omum yarısıdır. Redaksiyanı tərk edirik. Mən vəziyyətdən xəbərsiz olan əməkdaşları xəbərdar etmək üçün qapıya kiçik bir elan yapışdırıram: «Redaksiya bağlıdır, Fövqəladə vəziyyət götürülməyincə, qəzet çıxmayacaq». (Evə gələndən sonra, balalarımın narahat baxışları ilə üz-üzə

qalanda başa düşdüm ki, məhz fövqəladə vəziyyət şəraitində idarə qapısına o cür elan yazıb yapışdırmazlar... Nə isə, keçər olsun!).

...Sulu qar yağır, yol kənarında ağacların arxasında, kolların dibində gizlədilmiş hərbi texnikadan, marığa yatmış əsgər və zabitlərdən savayı heç bir ins-cinsdən soraq yoxdur. «Ölü şəhər»də adda-budda atəş səslərindən başqa heç nə eşidilmir. Sürüçümüz — təbiətən narahat, kəmhövsələ olan Ramiz kişi, adəti üzrə, tələsir. Onu sakitləşdirməyə çalışırıq: «Tələsmə, asta sür, qəfil gülləyə tuş olarıq». O isə, əksinə, tez sürüb aradan çıxmağı məsləhət görür. Bir neçə gün ötəndən sonra isə deyirmiş: «Bunlara (yəni, hərbçilərə — Ş.Y.) etibar yoxdur, adamı öldürüb meyitini də aparıb gizlədirlər...». (Zarafat idi, ancaq bu zarafatın özündə də həqiqət vardı — Qara yanvar HƏQİQƏTİ!).

...Yanvarın 23-ünü qətiyyən xatırlamıram. hər halda, bildiyim budur ki, redaksiyaya getməmişdim. Yanvarın 24-də isə yalnız axşam tərəfi mətbəənin açılmasına güman yarandı.

Nəşriyyata yollandıq. Müxtəlif iş sahələri üzrə 10— 15 fəhlə və ustanı direktorun qəbul otağına yığa bilmişdilər. Deyilənə görə, bunlar əsasən üzüyola, böyük-kiçik yeri bilən və nəşriyyatın nisbətən yaxınlığında yaşayan (həmin günlərdə bu, heç də az əhəmiyyətli amil deyildi) işçilər idi. Nəşriyyat rəhbərliyinin onları yola gətirmək cəhdləri bir-birinin ardınca puça çıxırdı. AXC-nin ümum-respublika etiraz aksiyasına çağırışı təsirini göstərirdi: Heç bir vəchlə işə başlamağa razı olmurdular. Şərt qoydular: qoy Xalq Cəbhəsinin rəhbərlərindən biri gəlsin, sözümüzü onlara deyək...

Nəcəf Nəcəfovun ardınca adam göndərdilər — qadağan saatının başlanmasına lap az qalmış onu nəşriyyata yetirdilər. Keçirdiyi mənəvi sarsıntılara (bunun əlamətləri danışığında, hərəkətlərində hiss olunurdu) baxmayaraq, ümumən vəziyyəti başa düşüb, çətinliklə də olsa, mətbəə işçiləri ilə dil [46-47] tapa bildi. Fəhlələrin 5—10 nəfərdən ibarət kiçik bir qrupu yalnız «Səhər»i və «Bakinski raboçi»ni işləməyə razılıq verdi. Ona qədər isə R. Nağıyevlə K. Qluşkov baş hərbi senzorla əsl alver etmişdilər: «Bunu olar, bunu yox», «Bunu verəcəyiksə, onda bunu da...». Nəticədə E.M. Qafarovanın bəyanatını yox, sessiyanın müraciətini yox, rəsmi məlumatı və sessiyanın qərarını, M.S. Qorbaçovun fərmanı və televiziya ilə çıxışı müqabilində şeyxülislamın tarixi məktubunun xülasəsini, hərbi komendantın əmri müqabilində fotoittiham kimi ürəyimizdən olan şəkli və, s. verməyə icazə aldıq.

O vaxt «Kommunist»in iqtisadi əlavəsi olan «Səhər» xırda formatda, həftədə bir dəfə 4 səhifədən ibarət çıxırdı. Dərdimiz dərin, müsibətimiz böyük idi — 4 səhifəyə çıxmazdı. Nəşriyyatın rəhbərliyi qarşısında şərt qoyduq: neçə səhifə alınırsa-alınsın... İnsafən, razı oldular. İlk dəfə «Səhər» 12 səhifədən ibarət çıxdı.

«Səhər»in birdəfəlik tirajı 50 min nüsxə, «Kommunist»inki yarım milyondan çox idi. Buna da mətbəə rəhbərliyinin icazəsini aldıq: qəzet dərd «Kommunist» tirajı qədər — yəni 2 milyon tirajla çap olunub yayılmalıdır.

«Səhər»in 12 səhifəsi «Kommunist»in 6 səhifəsi demək idi. Adətən 6 səhifəlik nömrəni 2 məsul redaktor, 3 səhifə növbətçisi, 2 nəzarətçi növbətçi, 3 korrektor və 3 korrektor köməkçisi, 3 metranpaj, 3—4 linotipçi və 1 buraxıcı — 20—21 adam hazırlayırdı. «Danışıqlar»ın əvvəlində elə təqribən bir o qədər də adamımız vardı. Nömrə üzərində işə başlayanda isə cəmi-cümlətanı on nəfər idik: redaktor əvəzi R. Nağıyev, redaktor müavini M. Süleymanzadə, baş müxbir Dilman Musayev, müxbirlər Zülfüqar Rüfətoğlu, Hidayət Elvüsal, buraxıcı Mehman Fərzullayev, linotipçilər Pənah Seyidov və Fazil Yusif oğlu, metranpajlar Arif Rzayev və Xanlar Əliyev, bir də mən.

Yanvarın 25-də saat 1-də başladığımız qəzeti gündüz saat 12-də çapa imzaladıq. Bu vaxta dördümüz qalmışdıq: Hidayət Elvüsal, Dilman Musayev, sürücü Əzim kişi və mən.

Həmin nömrəni görənlər görüb, oxuyanlar oxuyub. hətta peşəkarların da tuta bilmədiyi bəzi cizgilərini qeyd etməyi lazım bilirəm. «Səhər»in həmin nömrəsi kommunist mətbuatı tarixində ilk dəfə «Bütün ölkələrin proletarları...» şüarı olmadan çıxmışdır. Amansız senzura şəraitində sözlə [47-48] deyə bilmədiyimiz fikirləri tərtibatla demişdik: birinci səhifəsi son mənzilə aparılan «qəm karvanı» şəkli ilə açılan nömrə sonuncu səhifədə zirehli transportyor və tanklarla kəsilmiş yolda əli qalxanlı hərbçilərin şəkli ilə tamamlanır və həmin şəklin altında hərbi komendantın rus dilində

(Azərbaycan dilində çıxan qəzetdə rusca! — anlamaq istəmədiyimiz dildə!) 1 nömrəli əmri verilib. Qorbaçovun fərmanı və çıxışı ilə eyni səhifədə, yan-yana şeyxülislamın hər hansı bir dövlət başçısının yeddi qatından keçə biləcək məktubu dərc olunub. Orta səhifələr (6—7-ci) səhifələr səssiz fəryaddır: başdan-başa fotoşəkillər və ölənlərin, yaralananların sayı-hesabı barədə iki abzaslıq rəsmi məlumat. Rusdilli əhali əleyhinə psixoza qarşı iki məktub — ikisi də rus dilində. Bakıya respublika ağı deyir, onunla yanaşı, Dağlıq Qarabağda vəziyyətə dair xəbərlər verilib — Qanlı şənbə öz başlanğıcını Qarabağ faciəsindən götürür. (hər halda, rəsmi versiya belədir. Ancaq gün kimi aydındır ki, Bakı qırğınını törətməkdən ötrü Qarabağ problemi bəhanədir. Burada böyük imperiya siyasəti xalqın demokratiya uğrunda milli azadlıq mübarizəsi ilə kəllə-kəlləyə gəlmişdi və təbii ki, heç nəyi olmasa da, nəhəng hərb maşınına malik imperiya bu mübarizədə üstünlük qazanmışdı...). Sonrakı səhifədə isə Naxçıvandan, İran — Sovet sərhədindən reportaj — Bakıya ordu yeritmək zərurətini sərhəd xəttinin dağıdılması ilə çox əlaqələndirirdilər. «Literaturnaya qazeta»ya və onun icmalçısı, islamın açıq-aşkar düşməni, «islamşünas» İ.Belyayevə cavab və «Kommunist»in iki müxbirinin — təcrübəli Firudin Rəsulovla gənc Araz Qurbanovun Ermənistan ərazisindəki Nüvədi kəndindən reportajı: «Nüvədililər deyirlər: «Bu torpaqdan köçdü yoxdur!» — «Səhər»in bu nömrəsinin yaranmasının baiskarları da «Bu torpaqdan köçdü yoxdur» qətiyyəti ilə güllə qabağına gül ilə çıxmışdılar. Və bu da sonuncu sütun, sonuncu akkord, ən ağır söyüşdən də sərt səslənməli olan kiçik statistik məlumat: «Yalnız Azərbaycanın RSFSR-ə borcu yoxdur!».

Səmimi sözümüzdür: nömrə atüstü, fəhmlə, daxili intuisiya ilə belə alınıb. Sonradan öz-özümə çox fikirləşmişəm: əgər istəsəydim, nömrəni bu şəkildə tərtib edə bilərdimmi? Hər dəfə də [48-49] cavabım eyni olub: Yox! Yox! Yox! Onda o dərd bizim şüurumuza hakim kəsilib, bizi idarə eləyibdi.

...Nömrənin sonunda qeyd vermişik: «Bu nömrənin qonorarı şəhidlərin şərəfinə ucaldılacaq abidənin fonduna köçürüləcəkdir». 450 manat. Yəqin ki, o müqəddəs fonddakı ilk ianə elə bu məbləğ olub — «Şəhidlərə abidə fondu»nu ağıla gətirən, mətbuata gətirən «Səhər»in yaradıcılarının köməyi.

«Səhər» həmişə «Redaksiya heyəti» imzası ilə çapa imzalanıb. həmin ənənə də bu nömrədə pozulub və biz qəzeti hazırlayan yaradıcı işçilərin hamısının ad-familiyasını verməkdən özümüzü saxlaya bilməmişik. Bircə ona təəssüf edirəm ki, hansı səbəbdənsə birinci səhifədəki elegiyanın müəllifi, qələm dostumuz Ə. Əfqanın adı həmin siyahıya düşməyib.

Nömrənin quruluşu barədə bu qədər.

Sonra?

...Təxminən saat 14-də qəzetin siqnal nüsxələri maşının ağzından çıxdı. Az qala bütün mətbəə burada idi. heç kim — hər halda mən və Hidayət — bilmirdi ki, ağlasın, yoxsa sevinsin. Qəribə hiss idi. Bir həftə idi ki, bu mətbəədə qəzet çap olunmurdu — yanvarın 18-dən sonra «Səhər» ilk dəfə nifrət-kədər, hüzn buzunu qırmışdı — bahardan xəbər verən çobanyastığı kimi, «Səhər» həyat nişanəsi idi bizim üçün. Deməli, biz ölməmişik, biz varıq, olacağıq da!

Neçə deyərlər, rəngi qurumamış bir qom qəzeti Dilmanla redaksiyaya göndərdim. Tapşırdım ki, bir nüsxəsini üzbəüzdəki «Arşın mal» mağazasının vitrininə yapışdırsınlar. Belə də eyni vaxtda çox adam ayaq üstdəcə qəzeti görüb oxuya bilər. Dilman getdi. (Yeri gəlmişkən, biz redaksiyaya qayıdanda məlum oldu ki, qəzeti mağazanın vitrininə Sabir İsmayılov yapışdırıbmış. O, işini bitirməmiş camaat vitrinin önünə yığışıb və yaxınlıqda gəzişən əli-avtomatlı hərbçilər bunu «ekstremistlər»in növbəti yığnağı sayıb tez «aradan çıxmaq istəyən» Sabirin başının üstünü alıblar. Onları zorla inandırmaq mümkün olub ki, vitrinə yapışdırılan intibahnamə yox, rəsmi qəzet səhifələridir...).

...Saat 15 üçün biz də çap sexini tərk elədik. [49-50]

Əzim kişi salonu, yük yeri «Səhər»in matəm nömrəsi ilə dolu «QAZ-24»-nü Dağüstü parkın girəcəyində saxladı: cümə axşamı idi, iynə atsaydın, adam əlindən yerə düşməzdi. Qəhər məni boğa-boğa Hidayətə dedim:

— Gömək elə, camaata paylayaq...

Maşından qucağı dolu çıxdıq. Adamlar sanki bir komanda ilə nəzərlərini bizə tərəf çevirdilər. İlahi, bu nə möcüzədir? Bunlar kimdir belə? Qəzet hardandır onlarda? Yəqin belə düşündülər həmin anda. İlk nüsxələri çəkinə-çəkinə, tərəddüdlə uzatdıq onlara: «Buyurun, baxın, bu da...».

Sonra hər şey gözlərimizdə dumana büründü. Qıçlarımız tutulurdu. Biz yerə çəkmək istəyirdik. Lakin özümüzdə qüvvə tapıb yenə maşına doğru gedir, qucaq-qucaq qəzet götürür, bu dəfə bir-bir yox, topa-topa üstümüzə gələn adamlara uzadırdıq. Bu səssiz filmin ləng hərəkət edən sonuncu kadrı da yadımdadır: axır ki, yerə çökdüm və qucağımdakı qəzet topasını asfaltın üstünə tökdüm. Hidayət göz yaşlarını saxlaya bilmirdi...

...İlahi! Deməli, ölmək hələ tez imiş! Deməli, ölmək hələ tez imiş! Deməli, hələ kiməsə, nədəsə gərəkmişik!

...Sonralar deyirdilər ki, axundlar, mollalar matəm mərasimlərində «Səhər»in həmin nömrəsini qabaqlarına qoyub adbaad onu hazırlayanların ölənlərinin ərvahına fatihə oxuyurlarmış. Qarğış da söyləyə bilərdilər ünvanımıza. Bu, vəziyyəti dəyişdirməyəcəkdi — hər halda biz bacardığımızı eləmişdik...

* * *

Daha bir yazı: «Bu, təkrar olunmamalıdır!». Müəllifi respublikamızın tanınmış politoloqu Eldar Namazovdur. «Kommunist»in və «Bakinski raboçi»nin, səhv etmirəmsə, 1990-cı il 11 fevral. tarixli nömrəsində dərc olunması nəzərdə tutulmuşdu. Dərc olunmayıb — hərbi senzor icazə vermədi:

«Yanvarın 20-də Bakıda baş vermiş faciəli hadisələr haqqında nə vaxtsa kitablar, xatirələr yazılacaqdır. İndi, bu vəziyyətdən (adam heç bilmir onu necə adlandırsın — ruhi sarsıntımı, süstlükmü, yaxud qeyzmi) yavaş-yavaş yenicə çıxmağa başladığımız bir vaxtda isə şəhərimizdə nə [50-51] baş verdiyi barədə soyuqqanlıqla təmkinli mülahizələr yürütməyə hətta xırdaca cəhd göstərmək belə mümkün deyil. Bu faciə təkcə Bakıda və başqa şəhərlərdə, böyük qəsəbələrdə və kiçik dağ kəndlərində yaşayan milyonlarla adamın bu yaxınlarda Şəhidlər xiyabanına, son mənzilə yola saldığı adamların başına gəlməmişdir. Bu, təkcə klinikalarda həkimlərin gecə-gündüz çalışıb həyata qaytarmaq istədikləri adamların başına gəlməmişdir.

Yanvarın 20-də Bakıda baş verən faciə bütün ölkənin, bizim inamımızın, ümidlərimizin və gələcəyimizin başına gəlmişdir. Bu, azərbaycanlıların və rusların, estonların və gürcülərin qəzavü-qədəridir. Bəlkə də bunu hələ heç də hamı başa düşməmişdir. İki milyonluq şəhər hüznlü bir sükut içərisində öz oğul və qızlarını torpağa tapşıranda, Mətbuat prospektindəki tələbə şəhərciyinin qarşısında dünyanın 22 ölkəsinin matəm lentləri bağlanmış bayraqları aşağı salınanda Ümumittifaq radiosu və televiziyası ara vermədən mahnı və rəqsləri səsləndirirdi...

Tarixin uyarlıqlarına bir bax: 1905-ci il yanvarın 9-da «Qanlı bazar günü» sadəcə olaraq fəhlələrin nümayəndə heyətlərindən biri deyil, «mərhəmətli çar»a olan inam güllələboran edilmişdi. 1990-cı il yanvarın 20-də «Qanlı şənbə günü» Bakıda da sadəcə olaraq adamlar həlak olmamışdır. Həlak olan nə isə başqa bir şey idi. Mənə elə gəlir ki, bu itkilərin miqyası ölkədə hələ heç də tam mənası ilə dərk edilməmişdir.

Bu günlərdə bizim bir-birimizə ürək yanğısı ilə verdiyimiz ən başlıca sual budur ki, faciədən yaxa qurtarmaq olardımı? Mümkün idisə, bu, necə ola bilərdi? Yəqin ki, sualın cavabını biz respublikada yaradılmış xüsusi komissiyalar öz işlərini başa çatdırdıqdan sonra öyrənəcəyik. Çox ola bilsin ki, ölkənin xalq deputatları da belə bir komissiya yaradacaqlar. İndi bizim borcumuz bu hadisələrin tamam-kamal təhqiq olunmasına kömək etmək, ona nail olmaqdır ki, hadisənin müqəssirlərinin heç biri hansı yüksək vəzifəni tutmasından asılı olmayaraq qanun qarşısında məsuliyyətdən yaxa qurtara bilməsin.

Bununla əlaqədar olaraq xalqımızı narahat edən, cavabını gözlədiyimiz sualların heç olmazsa bəzilərini xatırlatmağı lazım bilirəm. [51-52]

**1. Qoşunların Bakıya yeridilməsi və fövqəladə vəziyyət elan edilməsi haqqında qərar necə qəbul edilmişdir!** SSRİ Konstitusiyasına görə, bu qərar əvvəlcə Azərbaycan SSR Ali Sovetinin Rəyasət heyəti tərəfindən müzakirə edilməli idi, hər şeydən göründüyü kimi, həmin qaydaya əməl olunmamışdır və bu, respublikanın suverenliyinin ciddi surətdə pozulması deməkdir.

**2. Nəyə görə qoşunların yeridilməsinə və atıcı silahının kütləvi surətdə işlədilməsinə yanvarın 19-da saat 24-də başlanmış, fərmanın özü isə əhalinin nəzərinə ancaq yanvarın 20-də səhər çatdırılmışdır!** Yanvarın 19-dan 20-nə keçən keçə yüzlərlə adam öldürüləndə və yaralananda şəhərin əhalisi fərmanın qəbul edildiyini hələ bilmirdi və bilə də bilməzdi. hüquqçular dəqiq cavab verməlidirlər ki, fərmanın qəbul edilməsi haqqında məlumat verilmədən qoşun yeridilməsini, kütləvi surətdə atıcı silahı işlədilməsini şəhərin əhalisinin vətəndaşlara faktiki basqın və onların həyatı üçün təhlükə saymağa ixtiyarı vardımı? Bunu da qeyd edək ki, yanvarın 19-dan 20-nə keçən kecə qadağan saatı da hüquqi cəhətdən elan edilməmişdi. Şəhərin komendantının 1 nömrəli əmrindən aydın olur ki, qadağan saatı sonradan — yanvarın 20-də saat 23-dən etibarən tətbiq edilmişdir. Deyilənlərə görə, faciəli hadisələrə bir neçə saat qalmış Mərkəz nümayəndələrindən kim isə Azərbaycan Xalq Cəbhəsinin nümayəndələrindən kiminləsə şəxsi söhbətdə qoşunların yeridiləcəyi haqqında nə isə demişdir. Bunun bəhanə gətirilməsi hüquqi baxımdan ən adi mədəniyyətsizlik və sağlam düşüncənin təhqir edilməsi deməkdir. Yanvarın 20-də səhərədək fərmanın tələblərinə ancaq onu imzalayan və hazırlayanlar riayət edə bilərdilər. İstintaq eksperimenti deyilən bir məfhum var. Məsələn, təsəvvür edin ki, Moskvada gecədir, orada fövqəladə vəziyyət tətbiq edildiyi heç kəsə məlum deyildir və birdən-birə avtomatçılar əllərindəki silahdan hər tərəfə döyüş qüllələri yağdırmağa başlayırlar...

**3. Atıcı silahının belə kütləvi şəkildə işlədilməsinə nə dərəcədə əsas vardı! Bu qədər çox adam qırılmasına nə ilə haqq qazandırmaq olar?** Bütün hallarda hərbi qulluqçu ancaq o zaman silah işlədə bilər ki, onun öz həyatı üçün bilavasitə təhlükə yaransın. Belə hesab etməyə əsas vardırmı ki, həlak olanların hamısı və ya heç olmasa əksəriyyəti terrorçudur? Axı onların arasında [52-53] uşaqlar, qadınlar, qıçalar, «təcili yardım» işçiləri vardır. İlkin məlumata görə, bunların 16 nəfəri arxadan açılan atəşlərdən ölmüş, 8 nəfərini zirehli maşınlar basıb öldürmüş, 2 nəfərinin bədəni süngülərlə dəlinmişdir. Bəziləri mənzilində səs eşidib pəncərədən baxarkən, evlərin eyvanlarına çıxarkən öldürülmüşdür. Aralarında bir hərbi qulluqçunun arvadı da vardır. hərçənd bəzi Moskva jurnalistləri işi elə qələmə verməyə çalışırlar ki, guya bu qadını azərbaycanlı davakarlar (yaraqlılar) öldürmüşlər.

Yeri gəlmişkən, ağırlıq mərkəzi dəyişdirilmiş güllələr haqqında suala da cavab verilməlidir. Qərəzli qətl üçün nəzərdə tutulan və bütün dünyada pislənmiş bu müdhiş güllələrdən Bakı küçələrində istifadə edilmişdir. Bir çox yaralıların həyatını xilas etməyin mümkün olmaması və beləliklə, şəhidlərin acınacaqlı siyahısının böyüməsi də bununla əlaqədardır. Təsadüfi deyil ki, yanvarın 20-dən sonra əhali arasında ölənlərin sayı iki dəfədən çox artmışdır. Yüngül yara alan yüzlərlə adamı demirik, hazırda xəstəxanalarda təqribən 100 nəfər ağır vəziyyətdə olan yaralı vardır.

**4. Görülmüş tədbirlərin əsaslandırılması haqqında.** M. S. Qorbaçovun televiziya ilə çıxışında Bakıdakı əməliyyata bir sıra səbəblərlə — milliyyətcə erməni olan əhali barəsində qanuna zidd hərəkətlərlə, Ermənistanla Azərbaycan arasında faktik surətdə vətəndaş müharibəsi vəziyyətinin yaranması ilə, AXC-nin «hərbi strukturunun» olması ilə, qanuni hakimiyyət orqanlarını zorla hakimiyyətdən kənar etmək cəhdləri ilə və Sovet — İran sərhədindəki hadisələrlə haqq qazandırılır. Bu hadisələrin hər biri, necə deyərlər, doğrudan da olmuşdur. Amma bunu yanvarın 19—20-də Bakıda törədilən faciəyə nə dəxli?

Ermənilərə qarşı qanuna zidd hərəkətlər yanvarın 13-də başlanmışdı və SSRİ Daxili İşlər Nazirliyi Baş İstintaq İdarəsinin rəisi general-mayor Y.Kukuşkinin etirafına görə, yanvarın 16-a yaxın şəhərdə vəziyyət sabitləşməkdə idi. Yanvarın 18—19-u ərəfəsində şəhərdə talanlar yox idi. Məhz bununla əlaqədar olaraq Mərkəzin nümayəndələri əhali qarşısında deyirdilər ki, Bakıda [53-54] qadağan saatı tətbiq etmək heç nəzərdə də tutulmayıb. Nəhayət, Bakıda hüquqa zidd hərəkətlər başlanandan bəri şəhərə SSRİ Daxili İşlər Nazirliyi daxili qoşunlar kontingentinin təqribən 12 min

hərbi qulluqçusu gətirilmişdi. Bütün həmin günlər ərzində onlar şəhərdə idilər, amma yanvarın nə 12-də, nə 13-də, nə 14-də, nə də 15-də və 16-da hüquqa zidd hərəkətlərin iştirakçılarına qarşı silah işlətmirdilər. həmin günlərdə əsgərlərə atıcı silahı heç verilmirdi də! Yanvarın 19-dan 20-nə keçən gecə şəhərin sakinlərinin öldürülməsi nə ilə bağlıdır?

Azərbaycan Ermənistanla doğrudan da vətəndaş müharibəsi vəziyyətində idi, amma iki respublikanın sərhədində, Naxçıvan MSSR ilə Ermənistan SSR-in sərhədində, DQMV-də və ətraf rayonlarda toqquşmalar baş vermirdi. Sovet — İran sərhədindəki hadisələrə də Bakı əhalisinin bilavasitə dəxli yoxdur. Xüsusən də orada vəziyyət artıq sabitləşməkdə idi, iki ölkə arasında isə sərhədboyu əhalisinin mahiyyətcə qanuni tələblərinin ödənilməsi haqqında razılaşma əldə edilmişdi.

AXC-də «hərbi struktur» doğrudan da mövcud idi, amma onun meydana gəlməsi, əvvəla, Azərbaycanın ərazi bütövlüyünü qorumaq sahəsində mərkəzi orqanların konstitusiyadan irəli gələn vəzifələrini yerinə yetirməkdən əslində boyun qaçırmaları ilə bağlı idi. Ermənistanın ərazi iddiaları elə miqyas almışdı ki, o, daha təkcə DQMV-ni deyil, Azərbaycanın bir sıra rayonlarını da hüquqi cəhətdən ilhaq etdiyini açıqca bildirirdi və cinayətkar planlarını əməli surətdə həyata keçirmək üçün oraya silahlı quldurlar göndərməyə başlamışdı. Nə mərkəzi hökumət və nə də sovet ordusu bunun əleyhinə çıxdı. İkincisi, belə bir «hərbi struktur» Ermənistan Ümummilli hərəkatında da yaradılmışdır, özü də daha çoxsaylıdır və daha yaxşı silahlanmışdır. EÜH davakarlarının sərəncamında hətta tanklar və zirehli transportyorlar vardır. Mən qətiyyən Yerevanda da dinc sakinlərin Bakıdakı kimi öldürülməsini tələb etmək niyyətində deyiləm, amma bir-birinə qarşı duran tərəflərdən birinin tərksilah edilməsi və susdurulması kimi birtərəfli tədbiri necə başa düşəsən? Əlalxüsus nəzərə almaq lazım idi ki, indiki halda təcavüzkar kimdir, müdafiə olunan kim, konstitusiyaya zidd olan (ölkənin partiya və dövlət orqanları tərəfindən dəfələrlə pislənilən) [54-55] niyyətlərə silah gücünə nail olmağa çalışanlar kimdir, konstitusiya prinsiplərini silahla müdafiə etmək istəyənlər, daha doğrusu, müdafiə etməyə məcbur olanlar kim. halbuki SSRİ-nin təşkil edilməsi haqqında müqaviləyə və SSRİ Konstitusiyasına görə, konstitusiyaya zidd hərəkətlərin qarşısını mərkəzi orqanlar özləri və çoxdan almalı idilər, onlar bunu etməyə borclu idilər. Nəhayət, axı AXC buraxılmamışdır, o, indi də hüquqi şəxsdir və qanuni yolla işləyən orqandır. Nə qədər ki, AXC-nin özü konstitusiya yolu ilə yaradılmış hüquqi birlikdir, onu darmadağın etmək üçün qoşunların qarşısında qoyulan vəzifə konstitusiyaya uyğun vəzifə sayıla bilməz. Deməli, bu cəhətdən də hüquq normaları pozulmuşdur.

Qanuni hakimiyyət orqanlarını zor gücünə devirmək cəhdi haqqında ittiham daha ciddi məsələdir. Mənə məlum olduğuna görə, AXC hakimiyyəti qəsb etmək üçün silah işlətməyi qarşısına məqsəd qoymamışdı. AXC-nin proqramında da, onun liderlərinin çıxışlarında da deyilirdi ki, bu birlik mübarizənin parlament formalarına sadiqdir, qarşıdakı seçkilərə hazırlaşır. Əgər AXC-nin liderlərindən hansı birisi isə «hakimiyyəti ələ keçirmək» oyunu oynamaq qərarına gəlmişdirsə, bu, ilk növbədə Azərbaycanda demokratik hərəkata qarşı, doğma xalqa qarşı fitnəkarlıqdır. Belə adamları yaxalamaq, aşkarlıq şəraitində mühakimə etmək indiki vəziyyətdə ən düzgün iş olardı. Amma bundan ötrü ehtiyatda olan hərbi qüvvələri səfərbərliyə almaq, zirehli transportyorlarda və tanklarda dəstə-dəstə şəhərə soxulmaq, bir belə adamı qırmaq lazım idimi?

**5. Bakıdan gedən rus qaçqınların meydana gəlməsinin və bununla əlaqədar ölkənin kütləvi informasiya vasitələrində Azərbaycan əleyhinə aparılan geniş kampaniyanın səbəbləri** də ciddi təhlil edilməlidir. Aydındır ki, adamları qaçmağa məcbur edən ilk növbədə qorxu hissidir. Amma bu qorxu rusdilli əhalinin evlərinə basqınlarla əlaqədar deyildir (sadəcə olaraq, belə basqınlar olmamışdır). Bu qorxu məhz azərbaycanlıların — qadınların, qocaların, uşaqların öldürülməsindən irəli gəlmişdir. Deməli, hərbi qulluqçular və onların ailə üzvləri ruslara qarşı hərəkətlərin deyil, azərbaycanlılara qarşı hərəkətlərin bəlasına düşmüşlər. Bu hərəkətlərin miqyası o qədər böyükdür ki, ruslar mütləq cavab tədbirlərinə əl atılacağını gözləyirdilər. Həyat göstərdi ki, [55-56] Azərbaycan xalqı başqalarının onun haqqında düşündüklərindən daha alicənab, daha ədalətlidir. Elə isə adamları sakitləşdirmək əvəzinə bütün dünya miqyasında Azərbaycan əleyhinə belə hay-küylü kampaniya təşkil edənlərin mövqeyini necə başa düşək? Bu kampaniyanı qızışdırmaq naminə bir neçə belə hadisəni yada salmışlar ki, Ermənistandan gəlmiş qaçqınlar

milliyyətcə erməni olan hərbi qulluqçuların və ya qarışıq ailələrin mənzillərinə soxulub onlardan Bakıdan getməyi tələb etmişlər. Bu bir neçə hadisə də yanvarın 19 —20-dəki hadisələrdən əvvəl baş vermişdir. Amma onları qoşunlar şəhərə yeridildikdən sonra hərbi qulluqçuların evlərinə basqınlar edilməsi faktları kimi qələmə verməyə başlamışlar. Bir hərbi qulluqçunun ailə üzvünün öldürüldüyündən danışılmışdır. Amma izah edilməmişdir ki, hərbi qulluqçu Nikolayenkonun arvadı öz mənzilində pəncərənin qarşısında olarkən hərbçilərin atdıqları təsadüfi güllədən həlak olmuşdur. Ermənistandan qovulmuş iki yüz min qaçqın iki ildən artıq idi ki, mərkəzi orqanlardan nə yardım ala bilirdi, nə də qaçqın statusu. Məgər onların qaçqın statusunu müəyyən edən müvafiq qərarlar qəbul etməyin lazım olduğunun Moskvada başa düşülməsi üçün gərək hərbi qulluqçuların bir neçə min ailə üzvü Bakıdan çaxnaşma içərisində keçəydi? Özü də indi aydın olmuşdur ki, onların çaxnaşmaya düşməsinə əsas yox idi.

Mənə elə gəlir ki, kütləvi informasiya vasitələrində gedən bütün bu kampaniya təsadüfi deyildir. Bu, Bakıda axıdılan qanlara haqq qazandırmaq məqsədi daşıyan kampaniyadır və bunun üçün rus xalqının təbii vətənpərvərlik hissləri ilə həyasızcasına oynayırlar. Bunları törədən adamlar ölkə ictimaiyyəti arasında özlərinə arxa tapmaq üçün hər şeyi — Moskva qəzetlərinin və televiziyasının yaratdıqları «keçmək» əhval-ruhiyyəsinin güclü təsirinə düşən Bakının rusdilli əhalisinin dinçiliyini və müqəddəratını da, Azərbaycan və rus xalqlarının Böyük Vətən müharibəsində axan birgə qanla möhkəmlənmiş dostluğunu da, xalqın mənəvi sağlamlığını da qurban verməyə hazırdırlar. Mənəvi sağlamlıqdan ona görə söz aşırıq ki, hələ heç bir xalq başqasına düşmən gözü ilə baxmaqdan xeyir tapmamışdır.[56-57]

**Sonuncu məsələ.** Bu günlər ölkənin kütləvi informasiya vasitələrində tez-tez belə xəbərlər gözə dəyir ki, Qərbin bu və ya digər rəhbərləri mərkəzi orqanların Bakıdakı tədbirlərinin səbəblərini «başa düşürlər». Amerika hökumətinin adı xüsusən tez-tez çəkilir, onun «bizdəki yenidənqurmaya inandığı» göstərilir. Azərbaycan və rus xalqları arasında nifaq salmaqdan başqa heç bir məqsədə xidmət etməyən belə «dəlillər»i eşitmək və oxumaq adama ar gəlir. Panamaya müdaxilə edib başqa dövlətin suverenliyini və dinc adamların yaşamaq hüququnu kobudcasına pozduqdan sonra tənqid atəşinə tutulan Amerika hökuməti dəfələrlə cəhd göstərmişdir ki, ölkəmizi də belə bir addım atmağa təhrik etsin. Məsələn, «Rumıniya hadisələri» zamanı belə bir cəhd olmuşdur. Amma o vaxt bizimkilər təmkin göstərdilər. Əgər belədirsə, indi Amerika hökumətinin vəziyyəti «başa düşdüyünə» sevinmək və istinad etmək nə dərəcədə doğrudur? Bizdəki yenidənqurma Amerika hökuməti üçün nə deməkdir? Bakı hadisələri ilə əlaqədar olaraq bütün xarici radiolar səs-səsə verib «rus imperiyasının parçalandığını», «SSRİ-də müsəlmanlarla xaçpərəstlər arasında müharibə başlandığını», «rus imperializminin müstəmləkəçiliyinin ləğv edildiyini» aləmə car çəkirlər. Mərkəzi siyasi rəhbərlərimiz və ölkənin kütləvi informasiya vasitələri Bakıdakı qanlı hadisələrə haqq qazandırmaq üçün, görəsən, həmin qüvvələrinmi köməyinə bel bağlayırlar?

Məncə, təcili surətdə SSRİ Ali Sovetinin fövqəladə sessiyasını çağırmaq... onun gündəliyinə Bakı faciəsi haqqında məsələ daxil etmək lazımdır. Alma-Atada, Tbilisidə, indi isə daha geniş miqyasda Bakıda baş vermiş hadisələr daha heç yerdə təkrar olunmamalıdır».

**YERİ GƏLMİŞKƏN:**

«...Tanınmış hüquq müdafiəçisi, sovet nümayəndə heyətinin həmsədrlərindən biri, Rusiya Ali Sovetinin insan hüquqları komitəsinin sədri Serkey Kovalyovun çıxışı çox böyük diqqətlə dinlənildi. O, ölkəmizdə insan hüquqlarının və əsas azadlıqlarının pozulmasının üç əsas qrupunu qeyd etdi. (...) [57-58]

(...) Onun fikrincə, pozuntuların növbəti kateqoriyası daha müasir xarakter daşıyır. Söhbət özünün əvvəlki statusunu saxlamağa, respublikaların suverenləşməsi prosesinə mane olmağa çalışan nüfuzlu mərkəzi hakimiyyət strukturlarının yaxın vaxtlardakı hərəkətlərindən gedir. S.Kovalyov qeyd etmişdir ki, Alma-Atada, Tbilisidə, Bakıda, Vilnüsdə, Riqada və digər regionlarda silahlı qüvvənin tətbiq edilməsi həmin strukturların əməlidir. Bu cinayətlər mümkün qədər tez SSRİ Prokurorluğu tərəfindən təhqiq olunmalı, istintaqın nəticələri isə ictimaiyyətə bildirilməlidir».

**(Avropada təhlükəsizliyə və əməkdaşlığa dair müşavirənin insanlıq meyarına dair III Moskva müşavirəsi haqqında hesabatdan — «Soyuz» həftəlik qəzeti, №38, sentyabr 1991-ci il).**

**ARTIQ SÖZƏ EHTİYAC VARMI ?!.**

**Yanvar 1990 - oktyabr 1991.**

***Ən axırda...***

***...92-nin əvvəlidir. Nəinki SSRİ prezidenti, heç SSRİ-nin özü də yoxdur. İlahi, yəni yenə bu qan yerdə qalacaq?!***















**Rəssamı Gündüz.**
**Foto F. Bağırovundur.**
**Korrektoru A. Canıyev.**

Ş. Yaqubov
MƏN ŞAHİDƏM Kİ..

Шакир Ганифа оглы Ягубов
**Я – очевидец…**
**Черный январь: до и после**
(на азербайджанском языке)

Баку - 1992

Çapa imzalanmış 14. 01. 92-ci il. Kağız formatı 60 X 90. 1/16 Şərti çap vərəqi 4,0. Uçot nəşr vərəqi 5,1. Ofset üsulu ilə çap edilmişdir. Sifariş 28. Tirajı 100.000. Qiyməti 3 man

Bakı, «Azərbaycan» nəşriyyatı. 370146, Bakı, Mətbuat prospekti, 529-cu məhəllə.